№ 47 (990) 23-29 noyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qәzet 1999-cu ildәn çıxır

# MİLLİ MƏCLİSDƏ 2018-Cİ İLİN DÖVLƏT BÜDCƏSİ LAYİHƏSİ MÜZAKİRƏ OLUNUR

## Növbəti ildə də real iqtisadi artım proqnozlaşdırılır



Noyabrın 21-də Milli Məclisin növbəti iclası keçirilib.

İclasda "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə paketinə daxil olan digər qanun layihələri müzakirəyə çıxarılıb.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə və hökumət üzvləri iclasda iştirak ediblər.

İclası açan Milli Məclisin sədri **Oqtay Əsədov** bildirdi ki, gündəliyin birinci məsələsi Azərbaycan Respublikasının 2018-ci il üçün dövlət büdcəsi layihəsidir.

Sədr diqqətə çatdırdı ki, Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş iqtisadi inkişaf strategiyası son illər dünya maliyyə-iqtisadi böhranı ilə əlaqədar ölkəmizdə makroiqtisadi sabitlik üçün yaranan təhlükələrin qarşısını almağa imkan verib. 2017-ci il ölkəmizin tarixində əlamətdar hadisələrlə yadda qalacaq. Bu hadisələrdən biri iki ay öncə "Azəri-Çıraq-Günəşli" neft və qaz yataqları blokunun işlənilməsinə dair Sazişin müddətinin 2050-ci ilədək uzadılması, digəri isə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı olub. Həmin layihələr Azərbaycanın gələcək siyasi və iqtisadi dayanıqlılığı üçün möhkəm zəmin yaradıb.

Oqtay Əsədov dedi: "Bu gün Milli Məclisdə müzakirəsinə başladığımız büdcə zərfinə daxil olan sənədlər ölkə həyatında müşahidə olunan müsbət dinamik dəyişiklikləri əks etdirir. Son illər ölkə iqtisadiyyatında baş verən önəmli hadisələrdən biri büdcə gəlirlərində qeyri-neft sektorunun payının təqribən 50 faizə çatması olub. Əgər qeyri-neft sektorunun mühüm hissəsi olan kənd təsərrüfatı istehsalının 2021-ci ilədək bütün vergilərdən azad edildiyi nəzərə alınarsa, bu göstəricinin arxasında nə qədər böyük bir potensialın dayandığını təsəvvür etmək olar".

Sədr bildirdi ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, eləcə də biznes mühitinin yaxşılaşdırılması, infrastrukturun inkişaf etdirilməsi, maliyyə bazarının təkmilləşdirilməsi və digər sahələrdə həyata keçirilən tədbirlər iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artmasına gətirib çıxarıb. Bunu qeyd etmək kifayətdir ki, Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan həmin göstəriciyə görə iki pillə də irəliləyərək dünyanın 140 dövləti arasında 35-ci yerə yüksəlib, MDB ölkələri arasında isə liderliyini qoruyub saxlayıb. 2018-ci il üçün dövlət büdcəsinin layihəsi ölkəmizin sosial-iqtisadi durumu və müasir dövrün çağırışları nəzərə alınmaqla tərtib olunub. Nazirlər Kabinetinin təqdim etdiyi büdcə zərfinin sənədləri göstərir ki, növbəti ildə də real iqtisadi artım proqnozlaşdırılır.

Qeyd edildi ki, gələn il üçün dövlət büdcəsinin gəlirləri 2017-ci ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 3,3 milyard manat, xərcləri isə 3 milyard manat çox olacaq. Bütün bunlar iqtisadiyyata investisiya qoyuluşunun daha da artırılmasına, kənd təsərrüfatının stimullaşdırılmasına, milli təhlükəsizliyin və müdafiə qabiliyyətinin gücləndirilməsinə imkan yaradacaq.

Əvvəlki illərdə olduğu kimi, büdcənin sosialyönümlülüyü saxlanılır. Gələn ilin dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisi 33,5 faiz və ya 7 milyard manat proqnozlaşdırılır. Bu, 2017-ci ilə nisbətən 2,2 faiz çoxdur.

Vurğulandı ki, 2018-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin birgə iclaslarında geniş müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Komitə iclaslarında 35-dən çox deputat çıxış edib. Hesablama Palatası da büdcə zərfi barədə müsbət rəyini bildirib.

Sonra çıxış edən Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri **Ziyad Səmədzadə** bildirdi ki, 2017-ci ildə ölkəmizin iqtisadiyyatında baş vermiş mühüm hadisələr 2018-ci ildə onun daha da inkişaf edəcəyinə inamı artırır.

Azərbaycan dövləti 2017-ci ildə heç bir sosial proqramın icrasını dayandırmayıb, valyuta ehtiyatlarını artırıb, tədiyə balansının göstəricilərini yaxşılaşdırıb. Dövlət büdcəsinin gəlirləri 2017-ci il üzrə təsdiq olunmuş proqnozla müqayisədə 20 faiz çoxdur. Bu, kifayət qədər böyük artımdır. Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə daxilolmalar yüksək səviyyədə yerinə yetirilib.

2018-ci ildə neft hasilatının azalmasına baxmayaraq, ölkədə ümumi iqtisadi artım proqnozlaşdırılır. Azərbaycan dünyada ən az borcu olan 10 ölkədən biridir. Ölkədə borcalma strategiyası hazırlanıb. Bununla yanaşı, kommersiya banklarına inam artırılmalı və banklarla əhali arasında konsensus yaradılmalıdır. Azərbaycanın 2018-ci il dövlət büdcəsində neftin baza qiymətinin 45 dollar/barrel səviyyəsində götürülməsi qarşıdakı hədəflərə nail olmağa imkan verəcək.

Bu rəqəm daha çox və ya daha az ola bilərdi. Birinci halda hökumət risklərə məruz qala, ikinci halda isə iqtisadi-sosial inkişafımızdan geri qala, bir sıra mühüm layihələrin reallaşmasında çətinliklərlə üzləşə bilərdik.

Sonra Ziyad Səmədzadə aparılan təhlillərdən danışdı və qeyd etdi ki, son 10 ildə Dövlət Neft Fondundan 76 milyard dollar transfert etmişik və bu olmasaydı, Azərbaycan risklərlə üzləşə bilərdi.

İclasda çıxış edən maliyyə naziri **Samir Şərifov** bildirdi ki, 2018-ci il üçün dövlət büdcəsinin gəlirləri 20,127 milyard manat həcmində proqnozlaşdırılır. Bu da ümumi daxili məhsulun 29 faizi həcmində olmaqla, 2017-ci ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 3,361 milyard manat və ya 20 faiz, 2016-cı ilin faktiki icra göstəricisi ilə müqayisədə isə 2,621 milyard manat və ya 15 faiz çoxdur.

Nazir bildirdi ki, 2018-ci il dövlət büdcəsinin gəlirləri üzrə proqnozun 7,907 milyard manatı və ya 39,3 faizi Vergilər Nazirliyinin xətti ilə daxilolmaların, 9,216 milyard manatı və ya 45,8 faizi Dövlət Neft Fondundan transfertin, 2,43 milyard manatı və ya 12,1 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 574 milyon manatı və ya 2,8 faizi isə digər gəlirlərin payına düşür.

Bildirildi ki, Azərbaycanın 2018-ci il dövlət büdcəsində neftin baza qiyməti 45 dollar/barrel səviyyəsində götürüləcək ki, bu da 2017-ci ildəki analoji baza qiymətindən 12,5 faiz və yaxud 5 dollar/barrel çoxdur.

Nazir diqqətə çatdırdı ki, 2018-ci ilin büdcə xərclərinin ümumi daxili məhsulda xüsusi çəkisi 30,1 faiz təşkil edəcək ki, bu da 2017-ci ilə nisbətən 3,8 faiz bənd çoxdur. Mütləq ifadədə 2018-ci ilin dövlət büdcəsində xərclər 20,906 milyard manat həcmində proqnozlaşdırılır ki, bu da 2017-ci illə müqayisədə 2,965 milyard manat və ya 16,5 faiz artıqdır. 2018-ci il üçün büdcə kəsiri 778,7 milyon manat həcmində nəzərdə tutulub.

Bildirildi ki, Azərbaycanın 2018-ci il icmal büdcəsinin gəlirləri 23223,2 milyon manat məbləğində proqnozlaşdırılır.

Gələn ilin dövlət büdcəsinin layihəsi hazırlanarkən 2018-2021-ci illərin makroiqtisadi proqnozları və qlobal iqtisadi prosesləri nəzərə alınıb.

Nazir dedi ki, Prezident İlham Əliyevin rəhbərliyi altında görülən iqtisadi siyasət tədbirləri ötən müddətdə hədəflənən nəticələrə nail olunduğunu göstərir. Belə ki, məqsədyönlü siyasət nəticəsində ölkədə qeyri-neft sektoru üzrə 2,5 faizlik real artıma nail olunub. Ticarət dövriyyəsində 4,4 milyard dol-

BAKI ALİ NEFT MƏKTƏBİ
BAKU HIGHER OIL SCHOOL

TWENTYEIGHTY™
Strategy Execution
FORMERLY IPS LEARNING & ESI INTERNATIONAL

School of
Project
Management

Proqramda iştirak üçün qeydiyyat davam edir

**Layihə İdarəetmə Məktəbi Sizə nə verir:**

- ***ABŞ-ın Corc Vaşinqton Universitetinin Layihələrin İdarəedilməsi üzrə Magistr Sertifikatı***
- ***Layihə İdarəetmə İnstitutunun (PMI) Professional Layihə Meneceri (PMP) imtahanına hazırlıq sertifikatı***
- ***7 moduldan ibarət tədris proqramı:***

*1. Layihələrin idarə edilməsi;*
*2. Cədvəlin tutulması və xərclərə nəzarət;*
*3. Risklərin idarə edilməsi;*
*4. Layihədə liderlik, kommunikasiya və menecment;*
*5. Layihə menecerləri üçün keyfiyyət;*
*6. Layihələrin idarə edilməsinin tətbiqi mexanizmləri;*
*7. Seçmə modul: Layihə menecerləri üçün danışıqların aparılması bacarıqları və ya PMP (Profesional layihə meneceri) imtahanına hazırlıq*



**Əlavə məlumat üçün əlaqə vasitələri:**
Tel: (+994 12) 521 00 00 (d.n.: 33062);
e-mail: n.shirinova@spm.az
www.bhos.edu.az

**Layihə Bakı Ali Neft Məktəbi, ABŞ-ın Corc Vaşinqton Universiteti və İngiltərənin "TwentyEighty Strategy Execution" şirkətinin birgə təşkilatçılığı ilə həyata keçirilir.**

lar müsbət saldo əldə edilib. O cümlədən dövlətin qeyri-neft sektorunun inkişafına artan maliyyə dəstəyi və qeyri-neft ixracının stimullaşdırılması, valyuta ehtiyatlarından qənaətlə istifadə edilməsi, ölkəyə valyuta axınının artması, digər fiskal və monetar tədbirlərin həyata keçirilməsi hesabına 2017-ci ilin əvvəlinə nisbətən 9 ayda icmal büdcənin kəsiri 12 faiz bənd azalıb.

Samir Şərifov 2018-ci ilin dövlət büdcəsi hazırlanarkən ölkənin müdafiə qabiliyyətinin daha da yüksəldilməsi, kənd təsərrüfatı sahəsinin inkişafı, məşğulluğun artırılması və sosialyönümlü tədbirlərin, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı zəruri xərclərin prioritet olaraq qaldığını qeyd etdi.

İqtisadiyyat naziri **Şahin Mustafayev** bildirdi ki, Maliyyə Sabitliyi Şurası tərəfindən təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq ötən dövrdə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması, o cümlədən valyuta bazarının tarazlaşdırılması, valyuta rejiminin təkmilləşdirilməsi, gömrük-tarif siyasətində və dövlət satınalmalarında idxalın məhdudlaşdırılması, habelə ixracın stimullaşdırılması istiqamətində əhəmiyyətli işlər görülüb.

Nazir dedi ki, artıq neçə illərdir aparılan bu islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. "Doing Business 2018" hesabatında Azərbaycan ötən illə müqayisədə 8 pillə irəliləyib, Avropa və Mərkəzi Asiya regionunda 4 və daha çox islahat aparan 3 ölkədən biri olub.

Şahin Mustafayev əlavə etdi ki, sistemli islahatların davam etdirilməsi, bank sektorunun sağlamlaşdırılması və valyuta bazarında gözləntilərin səmərəli idarə olunması, makroiqtisadi sabitliyə təhdid yaradan xarici iqtisadi şokların yaşanmaması şərtləri əsas götürülməklə növbəti ildə inflyasiyanın birrəqəmli, iqtisadi artımın isə müsbət olması proqnozlaşdırılıb. Qeyd edilənlər, habelə neft sektorunun azaldıcı, qeyri-neft sektorunun artırıcı təsirləri nəzərə alınmaqla 2018-ci ildə ümumi daxili məhsulun 1,5 faiz, növbəti illərdə isə orta hesabla 3,5 faiz artacağı proqnozlaşdırılır.

Növbəti ildə əsas kapitala investisiya qoyuluşlarının 15,9 milyard manat, xarici investisiyaların 7,7 milyard manat, daxili investisiyaların 8,2 milyard manat olacağı proqnozlaşdırılır. Neft sektoruna 6,4 milyard manat, qeyri-neft sektoruna isə 9,5 milyard manat investisiya yatırılacağı gözlənilir. 2018-ci ildə dövlət investisiya xərcləri 4,9 milyard manat olmaqla, əsasən ölkə üçün əhəmiyyətli olan infrastruktur layihələrinin, o cümlədən təhsil, səhiyyə, əhalinin sosial müdafiəsi və sosial təminatı layihələrinin icrasına yönəldiləcək.

Nazir qeyd etdi ki, qeyri-neft sənayesinin stimullaşdırılmasında sənaye və texnologiyalar parkları və sənaye məhəllələri mühüm rol oynayır. Sumqayıt Kimya Sənaye Parkının yaradılmasından qısa zaman keçməsinə baxmayaraq, layihələrinin ümumi dəyəri 1,8 milyard dollar olan 13 müəssisəyə rezident statusu verilib. Bunlardan 2 müəssisə artıq fəaliyyət göstərir, 4 müəssisə bu il, gələn il isə daha 5 müəssisə fəaliyyətə başlayacaq.

Sonra çıxış edən Hesablama Palatasının sədri **Vüqar Gülməmmədov** gələn ilin dövlət büdcəsi ilə bağlı palatanın rəyini açıqladı. Bildirildi ki, növbəti ilin dövlət büdcəsinin xərclərini fərqləndirən əsas məqamlardan biri odur ki, 2018-ci ildə son illərdə azalma ilə proqnozlaşdırılmış dövlət investisiya xərclərində nəzərəçarpacaq artım proqnozlaşdırılıb. Bu da büdcə gəlirlərinin və iqtisadi aktivliyin gücləndirilməsində mühüm rol oynayacaq.

Bildirildi ki, növbəti ildə dövlət idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədilə yaradılmış publik hüquqi şəxs kimi fəaliyyət göstərən bir sıra dövlət idarəetmə təşkilatlarının saxlanmasına növbəti ildən vəsait nəzərdə tutulmayıb. Gələn ilin dövlət büdcəsində ilk dəfə olaraq "İşsizlikdən sığorta haqqında" Qanunun qüvvəyə minməsi ilə əlaqədar fəaliyyətə başlayacaq bu sistemdə dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə sığortaedənin payının maliyyələşdirilməsi ilə bağlı vəsait proqnozlaşdırılıb. Büdcənin 2018-ci il üzrə proqnozlaşdırılmış göstəriciləri əsasında aparılmış hesablamalar beynəlxalq təcrübədə və nəzəriyyədə qəbul edilmiş borc göstəriciləri üzrə müqayisədə ölkəmizdə borc dayanıqlılığının mövcud olduğunu göstərir. Növbəti ilin büdcə layihəsində daxili və xarici dövlət borclanmasının yuxarı hədləri, həmçinin 2018-ci il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) azalma ilə proqnozlaşdırılıb. Bu isə növbəti illərdə dövlət borclanmasının və şərti öhdəliklərin artım tempinin azalmasına münbit şərait yaradacaq.

**(AZƏRTAC)**

# Kriptovalyuta ilə bağlı Mərkəzi Bankın mövqeyi konservativdir



Mərkəzi Bank kriptovalyuta problemlərini, "blockchain" texnologiyalarından istifadə problemlərini və bu sahədə tənzimləmə üzrə beynəlxalq təcrübəni diqqətlə izləyir. Kriptovalyuta ilə bağlı bankın mövqeyi konservativdir. Kriptovalyuta paralel maliyyə monetar sistemi deyil, yüksək riskli investisiya aktividir.

Bunu noyabrın 21-də Milli Məclisin plenar iclasında "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib.

"Blockchain" qabaqcıl texnologiyadır. Yaxın beşillikdə maliyyə sektoru, real sektor, idarəetmə sistemi də daxil olmaqla, bütün sistemdə dəyişikliklərə gətirib çıxaracaq. Bank "Blockchain" texnologiyalarının maliyyə-bank sektorunda tətbiqinə yardım edəcək. Bu sahədə artıq aparıcı məsləhətçi şirkətlərlə danışıqlara başlamışıq. Əvvəlcə "Blockchain"in hüquqi infrastrukturunu yaratmalıyıq, sonra isə onun texnoloji tətbiqinə keçməliyik", - deyə Elman Rüstəmov bildirib.

Bank sədri diqqətə çatdırıb ki, sərt xarici şok olmazsa, daxili valyuta bazarında sabitlik qorunacaq. Proqnozlaşdırılan neft qiymətləri çərçivəsində tədiyə balansının cari hesabı tarazlıdır, valyuta bazarında tələb-təklif arasında tarazlığı, manatın məzənnəsinin sabitliyini təmin etmək iqtidarındadır. Növbəti ildə pul bazarının inkişaf proqramları üzrə tədbirlər aidiyyəti orqanlarla birlikdə həyata keçiriləcək. Bank sektorunda restrukturizasiya davam etməlidir, kapitalizasiya tədbirləri davam etdirilməlidir. Problemli aktivlər həllini tapmalıdır.

# Müasir innovativ həllərin tətbiq sahələri müzakirə edilib

Mərkəzi Bankdan bildirilib ki, noyabrın 21-də Mərkəzi Bankda IBM şirkətinin Rusiya Federasiyası və MDB ölkələri üzrə baş direktoru Andrey Filatovun rəhbərlik etdiyi nümayəndə heyəti və kommersiya banklarının əməkdaşlarının iştirakı ilə "İnnovasiyalar günü" mövzusunda tədbir keçirilib.

Tədbirdə "Bank əməliyyatları üzrə inteqrasiya həlləri", "Blockchain və müasir maliyyə texnologiyaları (Fintech)", "Kvant hesablamaları", "Kiber təhlükəsizlik" və digər mövzular üzrə təqdimatlar keçirilib. Təqdimatlar zamanı müasir innovativ həllərin tətbiq sahələri, informasiya təhlükəsizliyi üzrə risklər və onların minimallaşdırılması istiqamətində preventiv kibertəhlükəsizlik tədbirləri ilə bağlı müzakirələr aparılıb.

Ödəniş və informasiya sistemlərinin daim təkmilləşən biznes tələblərə, beynəlxalq aləmdə informasiya-kommunikasiya texnologiyaları (İKT) istiqamətində baş verən inkişaf trendlərinə uyğunlaşması, bu sahədə innovativ həllərin implementasiyası Mərkəzi Bankın İKT üzrə başlıca hədəflərindəndir. Bu hədəflərin realizasiyası məqsədilə Mərkəzi Bank daim İKT çağırışlarını izləyir, qabaqcıl beynəlxalq təcrübənin Azərbaycan bank sektoruna çatdırılması istiqamətində zəruri tədbirlər həyata keçirir.

Mərkəzi Bank maliyyə texnologiyaları üzrə savadlılığın yüksəldilməsi və beynəlxalq aləmdə baş verən yeniliklərin bank sektoruna çatdırılması istiqamətində tədbirlərin mütəmadi olaraq həyata keçirilməsini planlaşdırır.



# Üçüncü rübdə "Bahar" və "Qum-dəniz"də gündəlik hasilat 3,8 min barrel neft ekvivalenti olub



Cari ilin üçüncü rübündə Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-dəniz" yataqlarından gündəlik hasilat orta hesabla 672 barrel neft, 18,9 milyon kubfut qaz, yaxud da 3 min 827 barrel neft ekvivalenti təşkil edib.

Hesabat dövründə "Bahar Energy Ltd." şirkətinin satış həcmləri xam neft üçün gündəlik orta hesabla 573 barrel və təbii qaz üçün 15 milyon 902 min kubfut olmaqla, gündəlik 3 min 223 barrel neft ekvivalenti olub. İlin əvvəlindən isə neft üçün satış həcmləri 651 min barrel, təbii qaz 16 milyon 767 min kubfut, ümumilikdə neft ekvivalenti üçün isə 3 min 446 barrel təşkil edib. Keçən ilin eyni rübü ilə müqayisədə neft üçün satış həcmləri 23 faiz, təbii qaz 8 faiz, ümumilikdə neft ekvivalenti ilə isə 11 faiz azalıb. İlin əvvəlindən isə neft üçün satış həcmləri 19 faiz azalıb, təbii qaz üçün 11 faiz neft ekvivalenti ilə isə 4 faiz artıb.

"Bahar Energy" öz neftinin bir barrelini orta hesabla 48,46 dollara satıb. Bu ilin doqquz aylıq dövründə isə neftin orta qiyməti isə 46,47 dollar/barrel təşkil edib. Ötən ilin analoji dövründə neftin satış qiyməti 40,86 dollar/barrel, 9 ayda isə 36,91 dollar/barrel olub. Cari ilin üçüncü rübündə təbii qazın satış qiyməti 2,69 dollar/min kubfut, ilin əvvəlindən isə orta qiymət 3,12 dollar/min kubfut təşkil edib.

Hesabat dövründə "Bahar Energy" əməliyyat şirkəti "Qum dəniz" yatağında 2 əsaslı və 7 xidməti təmir işini tamamlayıb. "Bahar" qaz yatağında isə 2 əsaslı təmir işləri davam edir və bu işlərin dekabr ayına tamamlanması planlaşdırılır.

Qeyd edək ki, "Bahar Energy Ltd." "Greenfields Petroleum"un tam mülkiyyətində olan törəmə şirkətidir.

# Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsi üzrə işlərin 98 faizi görülüb



Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihəsi üzrə işlərin 98 faizi görülüb.

"BP-Azerbaijan" şirkətindən bildirilib ki, cari ilin üçüncü rübü ərzində CQBKG üzrə işlər Azərbaycan və Gürcüstanda boru kəməri marşrutu boyunca uğurla davam edib. Ümumilikdə, bu işlərin – tikinti və istismar sınaqları daxil olmaqla 98 faizi artıq tamamlanıb.

Azərbaycanda əsas kəmər xəttinin inşası işləri tamamlanmaq üzrədir. Təqribən 419 kilometr uzunluğunda borular artıq qaynaq edilib, 380 kilometr boru xəndəyə endirilib və üstü örtülüb. Planlaşdırılmış 5 üfüqi qazma işinin hamısı tamamlanıb. Bundan əlavə, 6 hidro-sınaq bölməsində işlər bitib.

Gürcüstan ərazisində əsas boru kəməri xəttinin inşası işləri tamamlanıb. Əsas kəmər xəttinin istismar sınaqları 90 faiz bitib və 2017-ci ildə başa çatmaq planına uyğundur.

Gürcüstanda hər iki kompressor stansiyasında və nəzarət-ölçü stansiyasında tikinti-quraşdırma işləri və istismar sınaqları davam edib. Birinci kompressor stansiyasında tikinti işləri 100 faiz, istismar sınaqları isə 67 faiz bitib. Bu obyekt 2018-ci ildə istismara verilmək planına uyğun irəliləyir. İkinci kompressor stansiyasında tikinti işləri 82 faiz tamamlanıb. Nəzarət-ölçü stansiyasında (81-ci sahə) tikinti işləri 100 faiz, istismar sınaqları isə təqribən 87 faiz yerinə yetirilib. Bu obyekt 2017-ci ildə hazır olmaq planına uyğun irəliləyir.

# "Qərbi Abşeron" yatağında yeni quyular istismara verilib



"Azneft" İstehsalat Birliyindən bildirilib ki, "Abşeronneft" neft və qazçıxarma idarəsinin (NQÇİ) sifarişi ilə üç yeni quyu istismar fonduna qəbul edilib. Belə ki, "Qərbi Abşeron" yatağındakı 20 nömrəli stasionar dəniz özülündən 33, 34 və 36 nömrəli quyular qazmadan sonra istismara verilib. 33 nömrəli quyu məhsuldar qat çöküntülərinin Qirməkialtı lay dəstəsindən elektrik dalma nasos üsulu ilə məhsul verib, 718-633 metr intervaldan gündəlik 12 ton neft hasilatı ilə istismara daxil edilib.

34 nömrəli quyu da məhsuldar qat çöküntülərinin Qirməkialtı lay dəstəsindən elektrik dalma nasos üsulu ilə məhsul verib, 712-639 metr intervaldan gündəlik 15 ton neft hasilatı ilə istismara daxil edilib. Həmçinin, eyni özüldən 36 nömrəli quyu məhsuldar qat çöküntülərinin Qirməki lay dəstəsindən elektrik dalma nasos üsulu ilə məhsul verib, 747-664 metr intervaldan gündəlik 15 ton neft hasilatı ilə istismara daxil olunub.

Hər üç quyuda istismar işləri "Azneft" İstehsalat Birliyinin "Abşeronneft" NQÇİ tərəfindən həyata keçirilir.

# Yanvar-oktyabrda əsas kapitala 12536,5 milyon manat vəsait yönəldilib

2017-ci ilin yanvar-oktyabr aylarında əsas kapitala 12536,5 milyon manat məbləğində, yaxud 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,0 faiz az vəsait yönəldilib.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, istifadə olunmuş vəsaitin 9680,7 milyon manatı və ya 77,2 faizi məhsul istehsalı obyektlərinin, 2109,1 milyon manatı (16,8 faizi) xidmət sahələri üzrə obyektlərin, 746,7 milyon manatı (6,0 faizi) isə ümumi sahəsi 1399,5 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 5260,2 milyon manatını və ya 42,0 faizini daxili vəsaitlər təşkil edib. Əsas kapitala yönəldilmiş vəsaitlərin 9157,9 milyon manatı və ya 73,0 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.



# Regionlarda zona müşavirələri keçirilib



Noyabr ayının 15-18 tarixlərində Sumqayıt, Şirvan, Yevlax və Qəbələ şəhərlərində ölkəmizin şəhər və rayonlarını əhatə edən ərazi vergi departament və idarələrinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə dövlət vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması vəziyyəti, ərazi vergi orqanları üzrə müəyyən olunmuş vergi proqnozlarının icrasının təmin olunması, eləcə də cari ilin 10 ayı ərzində görülmüş işlər və 2018-ci ildə ərazi vergi orqanlarının qarşısında duran vəzifələrə həsr olunmuş zona müşavirələri keçirilib.

Zona müşavirələrində çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov 2017-ci ilin yanvar-oktyabr ayları ərzində ərazi vergi orqanları üzrə proqnoz tapşırıqlarına ümumilikdə 109,1 faiz əməl olunduğunu, proqnoz tapşırıqlarının bütün şəhər və rayonlar üzrə icra edildiyini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafının davamlı olaraq təmin edilməsi nəticəsində iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edən və 1999-cu ildən etibarən kənd təsərrüfatının torpaq vergisi istisna olmaqla, bütün vergilərdən tamamilə azad olunmasına baxmayaraq, son 10 il ərzində ərazi vergi orqanları üzrə vergi daxilolmalarının 7 dəfəyədək artaraq 86,6 milyon manatdan 600,8 milyon manata çatdırıldığını bildirib.

"Dövlət vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması vəziyyəti, vergi orqanları üçün müəyyən olunmuş proqnozların icrasının təmin olunması və vergi inzibatçılığına dair bəzi məsələlər haqqında" Vergilər Nazirliyinin Kollegiya Qərarı ilə cari ilin son iki ayında və 2018-ci ildə vətəndaş müraciətlərinə baxılması və dövlət vergi orqanları üzrə müəyyən edilmiş proqnoz tapşırıqlarının icrasının təmin edilməsi ilə bağlı verilmiş göstərişlərin mahiyyəti müşavirə iştirakçılarının nəzərinə çatdırılıb və məruzələr dinlənilib.

Zona müşavirələrində hesabatla çıxış edən ərazi vergi orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri mövcud nöqsanların aradan qaldırılması və müəyyən olunmuş vəzifələrin icrasının təmin olunması üçün görülən tədbirlər barədə məlumat veriblər.

Müzakirələrdə vətəndaş müraciətlərinə baxılması zamanı vergi ödəyicilərinin məmnunluq səviyyəsinin yüksəldilməsinin zəruriliyi, vergi ödəyiciləri tərəfindən vergilərin könüllü surətdə ödənilməsinə keçidin sürətləndirilməsi, səyyar, xüsusilə kameral vergi yoxlamalarının, eləcə də operativ vergi nəzarəti tədbirlərinin sayının azaldılması, aparılan yoxlama və nəzarət tədbirlərinin səmərəliliyinin artırılması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, vergi orqanlarının müxtəlif strukturları arasında koordinasiyanın daha səmərəli təşkili, vergi borclarının alınması üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin effektivliyinin artırılması, vergi orqanlarında vergi borclarının alınmasına cavabdeh olan strukturların, habelə vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarələri və şöbələrinin fəaliyyətində korrektələr edilməsinin, şəxsi heyətlə aparılan işlərin gücləndirilməsinin zəruriliyi xüsusi olaraq vurğulanıb.

Yevlax şəhərində keçirilən tədbir çərçivəsində kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan vergi ödəyiciləri ilə ayrıca görüş keçirilib. Görüşdə kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması üçün dövlət tərəfindən görülən tədbirlər barədə məlumat verən S.Ələkbərov bildirib ki, bu, ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalının və onların digər ölkələrə ixracının artmasına ciddi təkan verib. Bununla yanaşı, belə vergi ödəyiciləri arasında ciddi vergidən yayınma hallarının olduğu qeyd edilərək, səbəbləri təhlil olunub, vergi ödəyicilərinin qaldırdığı məsələlər və verdikləri təkliflər dinlənilib. Xüsusi olaraq vurğulanıb ki, bir sıra hallarda bəzi işbazlar vergidən yayınmaq və buna görə heç bir məsuliyyət daşımamaq məqsədilə kənd təsərrüfatı məhsullarının ixracı prosesinə bu işdə səriştəsi olmayan insanları cəlb edir, onların əli ilə vergi qanunvericiliyini kobud surətdə pozaraq vergidən yayınmağa cəhd göstərirlər. Bu kimi hallarla qarşılaşmamaq üçün görüş iştirakçılarına konkret tövsiyələr verilib, öz fəaliyyətlərini şəffaf və qanun çərçivəsində qurmalarının zəruriliyi onlara bir daha izah edilib.

Zona müşavirələrinin keçirildiyi şəhərlərdə nazir müavini S.Ələkbərov tərəfindən Azərbaycan Respublikasının Prezidentinə və birinci Birinci Vitse-Prezidentinə müraciət ünvanlamış vətəndaşların qəbulları keçirilib, həmin vergi ödəyicilərinin qaldırdığı məsələlərin həlli üçün konkret tədbirlər görülüb.

# «Azərbaycanın vergi jurnalı»nın bu il 1-ci nömrəsi çapdan çıxmışdır

Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan «Azərbaycanın vergi jurnalı»nın 2017-ci ildəki 1-ci nömrəsi çapdan çıxmışdır.

Jurnalın "Baş redaktordan" rubrikasında i.e.d., prof. Elşən Hacızadə redaksiyanın işi və qarşıdakı vəzifələr haqqında oxuculara məlumat vermişdir.

"Rəsmi" rubrikasında Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqinin geniş xülasəsi verilmişdir.

"Aktual" rubrikasında Azərbaycan Respublikasının vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun Avropadaxili Vergi Administrasiyaları Təşkilatının saytında (www.iota-tax.org) yerləşdirilmiş məqaləsi oxuculara təqdim olunur. Məqalədə ölkəmizin vergi sistemində aparılmış islahatlar, vergi inzibatçılığındakı dəyişikliklərin əsas istiqamətləri ətraflı şəkildə şərh edilib.

Nömrədə bir neçə qanunvericilik sənədi – "Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin



AZƏRBAYCANIN VERGİ JURNALI

1 (133) / 2017

Beynəlxalq resenziyalı elmi jurnal

17 | Vergi xidməti yeni islahatlar və transformasiya yolunda — F.Məmmədov

37 | Azərbaycan Respublikasında ixrac potensialının stimullaşdırılmasında vergitutma amilləri — F.Hacıyev

51 | Reinjinirinq innovasiya menecmentinin xüsusi növü kimi — A.Abbasov

61 | Azərbaycanın idxal-ixrac əməliyyatları üzərində valyuta nəzarətinin təkmilləşdirilməsi — İ.Kərimli, İ.Bayramov

77 | Siyasi iqtisad və ekonomiks diskussiyalar müstəvisində — Ə.Babayev

89 | Azərbaycanda iqtisadi diversifikasiyanın dəstəklənməsində vergi dərəcələrinin optimallığının ekonometrik qiymətləndirilməsi — V.Bayramov

101 | Vergilərin gəlirin yenidən bölgüsünə təsiri — Z.Zeynalova

113 | İnsan kapitalı konsepsiyasının yaradılması və onun kəmiyyət qiymətləndirilməsinə yanaşmaların təhlili — M.Mədətov

127 | Mənfəət vergisi gəlirlərinin neftdən asılılığının modelləşdirilməsi: Azərbaycan nümunəsində — X.Alıyev

ISSN 2305-4611

qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, həmin qaydalar və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu dərc edilmişdir.

Jurnalın elmi məqalələr blokunda bu dəfə iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən tədqiqatların nəticələrinin əks olunduğu elmi məqalələr yerləşdirilmişdir. Bunlar i.e.d., prof. F.Hacıyevin "Azərbaycan Respublikasında ixrac potensialının stimullaşdırılmasında vergitutma amilləri", i.e.d., prof. A.Abbasovun "Reinjinirinq innovasiya menecmentinin xüsusi növü kimi", i.e.d., prof. İ.Kərimli və doktorant İ.Bayramovun "Azərbaycanın idxal-ixrac əməliyyatları üzərində valyuta nəzarətinin təkmilləşdirilməsi", i.e.d., prof. Ə.Babayevin "Siyasi iqtisad və ekonomiks diskussiyalar müstəvisində", i.f.d. V.Bayramovun "Azərbaycanda iqtisadi diversifikasiyanın dəstəklənməsində vergi dərəcələrinin optimallığının ekonometrik qiymətləndirilməsi", i.f.d. Z.Zeynalovanın "Vergilərin gəlirin yenidən bölgüsünə təsiri", i.f.d. M.Mədətovun "İnsan kapitalı konsepsiyasının yaradılması və onun kəmiyyət qiymətləndirilməsinə yanaşmaların təhlili", dissertant X.Alıyevin "Mənfəət vergisi gəlirlərinin neftdən asılılığının modelləşdirilməsi: Azərbaycan nümunəsində" sərlövhəli məqalələridir.

Bundan başqa, "Dünya iqtisadiyyatı" rubrikasında Norveç Krallığının iqtisadiyyatı və vergi sistemi, "Dünyanın görkəmli iqtisadçıları" rubrikasında fransalı dövlət xadimi və maliyyəçisi Jan Baptist Kolbert barədə oxuculara məlumat verilmişdir.

Bu nömrədə həmçinin "İqtisadi terminlər lüğəti" və üç dildə - Azərbaycan, ingilis və rus dillərində müəlliflər üçün qaydalar dərc edilmişdir.

# Sığorta bazarında yenilik: KASKO BUTİK




15 noyabr 2017-ci il tarixində Azərbaycan sığortaçılığında inqilab sayıla biləcək bir təqdimat baş tutdu. Artıq bir neçə vaxtdır ki, hər kəsi intizarda saxlayan Kasko butik elektron sığorta platforması ictimaiyyətə və mediaya təqdim edilib.

Azərbaycanda bu sloqanla "KASKO BUTİK" fəaliyyətə başlayır. Bildirilir ki, Kasko butik müasir və innovativ platformadır, bütün müqavilələr elektron bağlanılır və digər sənədlərlə birlikdə sizin elektron poçt ünvanınıza göndərilir.

Zaman Broker tərəfindən ərsəyə gətirilən platforma avtomobil sığortası müqavilələrinin onlayn əldə edilməsi üçün yaradılıb. Platformaya www.2222.az domenindən daxil olmaq mümkündür. ''Öz ölçünü seç!'' şüarı ilə fəaliyyətə başlayan Kasko butikdə sığorta məhsulları geyim etiketlərində olduğu kimi, S, M, L və XL adlandırılıb. S ölçüsü 222 manat sığorta haqqı müqabilində 2222 manatlıq sığorta təminatı verir. M ölçüsündə isə 3333 manatlıq sığorta təminatı üçün 333 manat sığorta haqqı ödənilir. Sığorta haqları L və XL ölçülərində müvafiq olaraq 444, 555 manat, sığorta məbləğləri isə 4444 və 5555 manat olaraq müştərilərə təklif olunur.

**SIĞORTANI KASKO BUTİKDƏN ALMAQ ÜÇÜN SƏBƏBLƏR**

Kasko butik bildirir ki, 97% hallarda təmir xərcləri 5000 manatı keçmir. Bu səbəbdən bahalı kaskoya ehtiyac yoxdur.

Kasko butik avtomobil sığortasını adi kasko məhsullarından xeyli aşağı təklif edəcəkdir. Üstəlik sığorta haqqını hissələrlə hər ay ödəmək imkanı təklif olunacaqdır.

Kasko butik ilə sığorta ödənişini günlərlə gözləmək dövrü keçmişdə qalacaqdır. "Biz pulunuzu 59 dəqiqə ərzində ödəyirik!", - Kasko butik bildirir.

Üstünlüklər yuxarıda qeyd olunanlar ilə bitmir: Butik avtomobilin servis mərkəzində keyfiyyətlə təmir olunmasını təmin edəcək, 1000 manatadək zərərlər zamanı sənədlər tələb olunmayacaq. Avtomobiliniz təmirdə olan zaman siz piyada qalmayacaqsınız. Bu müddətdə sizin 120 manatadək taksi xərcləriniz ödəniləcəkdir. Sığorta şəhadətnaməsi bütün dünyada qüvvədə olacaqdır, sığortalı avtomobili yaşı 21-dən yuxarı hər kəs qanuni əsaslarla idarə edə biləcəkdir.

Kasko butik məhsulları, demək olar ki, sığortalıları bütün mümkün risklərdən, o cümlədən avtonəqliyyat hadisələrindən, yanğın və partlayışdan, oğurluq və qaçırma hallarından, üçüncü şəxslərin qanunazidd hərəkətlərindən və heyvanların vurduğu zərərlərdən, hər cür təbii fəlakət və təbiət hadisələrindən qoruyur. Yaşı 21 dən yuxarı olan və avtomobili qanuni əsaslarla idarə edən bütün sürücülərə təminat verilir. Avtomobil sahibləri təmir məntəqəsini öz arzuları ilə seçirlər, hətta rəsmi servis mərkəzlərində də qiymətləndirmə apara bilərlər. Sığorta ödənişi müştərinin bank hesabına pul şəklində ödənilir.

Digər inqilabi yenilik ondan ibarətdir ki, zərərin dərhal yerində müəyyən olunması mümkün olan hallarda və zərər məbləği 1000 manatı keçmədiyi halda DYP-dən təsdiqedici sənəd (Forma 4) istəmədən Kasko butik sığorta ödənişlərini 59 dəqiqə ərzində ödəməyi vəd edir.

Kasko butik tamamilə onlayn platformadır, müqavilələr də elektron olaraq tərtib olunur və bütün kommunikasiya müştərinin elektron poçtuna göndərilir.

**KASKO BUTİKƏ 6 SIĞORTA ŞİRKƏTİ ZƏMANƏT VERİR**

Digər mühüm yenilik ondan ibarətdir ki, Azərbaycanda ilk dəfə olaraq Kasko butik məhsullarına 1 sığorta şirkəti yox, 6 aparıcı sığorta şirkəti (A-Qroup, Az Sığorta, Ata Sığorta, Atəşgah Sığorta, Günay Sığorta və Qala Sığorta) birgə zəmanət verir.

Kasko butik həm də müxtəlif innovativ addımlar atıb. Belə ki, Meri adlandırılan və süni intellekt əsasında çalışan ilk sığorta ÇatBotu 24 saat Kasko butiklə bağlı suallarınıza cavab verəcək. Eyni zamanda, müştərilərin vaxtına və vəsaitinə qənaət etmək üçün ilk dəfə məsafədən avtomobilə baxış keçirilməsini təmin edən texnologiya hazırlanıb. Artıq siz olduğunuz yerdən xüsusi proqram vasitəsilə avtomobilinizin vəziyyətini Kasko butikə göstərə biləcəksiniz.

Kasko butikdə sığorta haqları onlayn olaraq "Paşa Bank" vasitəsilə və ya sizə yaxın olan "ExpressPay" terminalları vasitəsilə, həm də hissələrə bölünməklə ödənilə bilər.

*2222 Sığorta Dəstək Mərkəzi isə 7/24 çalışır və sığorta ilə bağlı istənilən sualınıza cavab verməyə hazırdır.

Kasko butik "Zaman Broker" şirkətinin layihəsidir və layihəyə sığorta bazarı üzrə tanınmış ekspert Xəyal Məmmədxanlı rəhbərlik edir.

# "AtaBank" ASC-nin kartları ilə xüsusi ENDİRİM-lərə sahib ol!




"AtaBank" ASC-nin MasterCard plastik kart sahibləri il boyu Bakının bir çox xidmət və satış nöqtələrində möhtəşəm güzəştlər əldə edə bilər.

Priceless Specials proqramında kafe və restoranlar, parfümeriya, sağlamlıq, mebel və ev aksesuarları, gül butikləri və digər sektorlarda 20% -dək endirimlər təqdim edilir. AtaBank MasterCard plastik kartları ilə ödəniş edərək, kart sahibləri avtomatik imtiyazlardan istifadə edir.

Əlavə olaraq, Priceless Specials proqramı sizə daha çox üstünlüklər və yeni imkanlar təqdim etməyə davam edəcək.

Kampaniya haqqında ətraflı məlumatı www.mastercard.az saytında əldə edə bilərsiniz. 1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitallı, yüksək texnologiyalı universal Azərbaycan bankıdır. Bakıda və ölkənin müxtəlif regionlarında Bankın 31 filial və şöbəsi fəaliyyət göstərir. Bank korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# "Kapital Bank" "Şəffaf vergi partnyorluğu statusuna" layiq görülüb

Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamenti "Kapital Bank"ı "Şəffaf vergi partnyorluğu statusuna" layiq görüb.

Bankdan AZƏRTAC-a bildiriblər ki, noyabr ayında nazirlik tərəfindən partnyor vergiödəyicisi statusunun əldə olunması münasibətilə "Kapital Bank"a bildiriş göndərilib.

"Kapital Bank" Azərbaycan Respublikasının vergilər haqqında qanununa uyğun fəaliyyət göstərir və 2017-ci ilin üç rübü ərzində 28,6 milyon manat vergi ödəyib.




Ümumiyyətlə, 2017-ci ilin üçüncü rübünün nəticələrinə görə, bankın aktivləri 3 milyard manat, xalis mənfəəti 57,6 milyon manat, nizamnamə kapitalı 185 milyon manat, məcmu kapitalı isə 266,3 milyon manat təşkil edib.

Qeyd edək ki, Azərbaycanda ən böyük filial şəbəkəsinə malik olan "Kapital Bank" 92 filialı və 7 şöbəsi ilə müştərilərin xidmətindədir. Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.az saytına, 196 Sorğu Mərkəzinə və ya bankın müxtəlif sosial şəbəkələrdəki səhifələrinə müraciət etmək olar.

# AZƏRBAYCANININ MÜASİR SOSİAL-İQTİSADİ İNKİŞAFININ TƏHLİLİ VƏ PERSPEKTİVLƏRİ

**(əvvəli ötən sayımızda)**

Dövlətin iqtisadi siyasəti çərçivəsində həyata keçirdiyi kompleks stimullaşdırıcı tədbirlərin nəticəsi olaraq, Vergi Məcəlləsinə əsasən, sənaye parklarının rezidentləri 7 il müddətinə əmlak, torpaq, mənfəət vergisindən, eləcə də istehsal məqsədilə idxal etdikləri avadanlıqlara görə ƏDV-dən azad olunurlar. Bütün bunlar müasir sosial-iqtisadi inkişafın lokomotivi olan sənayenin inkişafına bir daha təkan verir.

Son illərdə sahibkarlıq fəaliyyətindən və mülkiyyətdən gələn gəlirlərin sürətlə artması biznes mühitinin formalaşdırılması və özəl mülkiyyətin əsaslarının möhkəmləndirilməsi fonunda baş verib ki, buna da səbəb qanunvericilik bazasının təkmilləşdirilməsi, müxtəlif dövlət proqramları ilə iqtisadiyyatın ayrı-ayrı sahələrinə dövlət qayğısının artırılması, vergilərin təkmilləşdirilməsi və iqtisadiyyatın idarə edilməsinə müasir yanaşmanın ortaya qoyulması olub. Gəlirlərin artımının inflyasiyanı ciddi faizlərlə üstələməsi həm son istehlaka, həm də yığıma yönəldilən vəsaitlərin effektiv artımına gətirib çıxarıb.

Belə ki, biznes mühitinin dinamik inkişafı şəraitində respublikada təkcə yerli sərmayədarlar üçün deyil, həm də xarici investisiyalara əlverişli vergi mühiti yaradılıb. Biznesə başlama prosedurları əsaslı şəkildə sadələşdirilib, vergi qanunvericiliyində çoxlu güzəştlər müəyyən edilib, sahibkarlığın və ixracın təşviqinə yönələn tədbirlər reallaşdırılıb. Özəl sektor, kiçik və orta sahibkarlıq sadəcə olaraq biznes mühitini yaxşılaşdırmaq, yeni iş yerləri yaratmaq üçün deyildir. İnnovasiyalı sahibkarlığın inkişafı, əslində, ölkədə dayanıqlı sosial-iqtisadi inkişafa təkan verir ki, bu da çox böyük radikal islahat deməkdir. Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli fərmanına uyğun olaraq, son illərdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, o cümlədən prosedurların sadələşdirilməsi, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, əsassız yoxlamaların qarşısının alınması və digər istiqamətlər üzrə işlər davam etdirilib. Fərmanla müəyyənləşdirilmiş vəzifələr sahibkarlıq sahəsində 8 istiqamət üzrə geniş islahatların aparılmasını tələb edir.

Belə ki, vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sahəsində vergi orqanları tərəfindən çox mühüm islahatlar həyata keçirilməkdədir. Vergi sisteminin qabaqcıl Avropa standartlarına uyğunlaşdırılması, texniki potensialın gücləndirilməsi, vergi auditinin inkişaf etdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının davamlı tətbiqi, vergi ödəyicilərinin, xidmət sahələrinin, o cümlədən elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi sahibkarlıq fəaliyyətinin inkişafına şərait yaratmış olur.

Ölkədə sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində hazırda sistemli tədbirlər davam etdirilir, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha mütərəqqi normativ-hüquqi baza formalaşdırılır. Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının aparılması, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində keçirilən islahatların davamı olaraq, tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə zəruri dəyişikliklər edilib.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilmiş **"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında"** Azərbaycan Respublikasının Qanununda onun tətbiq dairəsi, yoxlamaların məqsəd və



**Hacıyev Fazil, Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu və audit" kafedrasının i.e.d., prof.**

prinsipləri, yoxlayıcı orqanların səlahiyyətləri ilə yanaşı, sahibkarlara məsləhətlərin verilməsi kimi çox əhəmiyyətli müddəalar nəzərdə tutulub.

Hazırda ölkədə tətbiq edilən bu qanun vahid məlumat reyestrinin olmasına, sahibkarların işə məsuliyyətlə yanaşmalarına və nəticədə istehlakçıların hüquqlarının qorunmasına yönəldilib.

Belə ki, biznesə başlanılması prosedurunun sadələşdirilməsi ilə bağlı digər faktlara da Azərbaycan Respublikasının Vergi Məcəlləsində 104 azadolma və 25 güzəşt növü olmaqla cəmi 129 güzəşt və azadolma mövcuddur.

Bununla yanaşı, Azərbaycan Respublikasının digər dövlətlərlə bağladığı vergi siyasətinin əsası olan ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin (DTA) inzibatçılıq qaydaları sadələşdirilib. Eyni zamanda, elektron müraciət olunması, bütün gəlir növləri üzrə güzəştlərin əvvəlcədən tətbiq edilməsi, formanın təsdiqinin gəlir ödəyən şəxsə birbaşa onlayn göndərilməsi imkanı yaradılıb.

Qeyd etmək lazımdır ki, vergi və gömrük rüsumlarından 2000 manat məbləğində yayınan sahibkar cinayət məsuliyyətinə cəlb edilir. Yeni qanuna əsasən, cinayət məsuliyyəti yaradan hədd 10 dəfə artırılaraq, həmin məbləğ 20 000 manat olmuşdur. Yəni, 20 000 manata qədər vergi və gömrük rüsumlarından yayınan şəxslər artıq cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb ediləcəkdir. Bu da həmin məbləğ qədər əməllərin dekriminallaşdırılması deməkdir. Bu dəyişikliklər nəticəsində ümumilikdə 24 maddə sahibkarların məsuliyyətini yüngülləşdirmişdir.

Yaxın gələcəkdə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza, o cümlədən "ASAN imza" sertifikatlarının qarşılıqlı tanınmasının təmin edilməsi istiqamətində isə intensiv işlər aparılır.

Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "**Ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır"** strateji xəttinə uyğun olaraq son illər ərzində həyata keçirilən kompleks və ardıcıl tədbirlər, səmərəli dövlət dəstəyi sistemi, vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, layihələrin güzəştli şərtlərlə kreditləşdirilməsi, dövlətlə birgə maliyyələşdirmə və risklərin bölüşdürülməsi səmərəli nəticəsini verib. Sənaye və texnologiyalar parklarının və zonalarının, aqroparkların, biznes-inkubatorların yaradılması, maarifləndirici tədbirlərin, biznes forumların, sərgilərin təşkili və s. kimi tədbirlər nəticəsində sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib. ÜDM-də özəl bölmənin payı 80%-i, məşğulluqda 75%-i ötüb. Son dövrlərdə dövlət başçısının imzaladığı fərman və sərəncamlarla sahibkarlıq sahəsində lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, satınalmalarda yerli sahibkarlara üstünlük verilməsi, gömrük sahəsində görülən işlər, ixracın və investisiyaların təşviqi mexanizmlərinin tətbiqi biznesin inkişafına göstərilən diqqətin davamı olmaqla özəl bölmənin inkişafında xüsusi əhəmiyyət daşıyır. Ölkədə sahibkarlıq fəaliyyətinin genişlənməs, hər şeydən öncə, ümumdaxili məhsulun ilbəil artmasına imkan verir.

Ümumiyyətlə, şəffaf biznes və sağlam rəqabət mühitində innovasiyalı sahibkarlığın genişlənməsinə əlverişli şərait yaradılması Azərbaycanın dinamik və uzunmüddətli inkişafı məqsədilə aparılan uğurlu vergi siyasətinin əsas istiqamətləri sırasındadır. Bu siyasət milli iqtisadiyyatda, eyni zamanda, yeni iş yerlərinin açılmasında, əmək bazarının inkişafında, məşğulluq səviyyəsinin yüksəldilməsində özəl sektorun, o cümlədən biznesin rolunun əhəmiyyətli şəkildə artmasına səbəb olub. Təsadüfi deyil ki, respublika iqtisadiyyatında məşğul əhalinin 70%-dən çoxunu qeyri-dövlət sektorunda çalışanlar təşkil edir.

Regionların davamlı inkişafında və əhalinin məşğulluğunda olduqca əhəmiyyətli rol oynayan sahibkarlığın inkişafı üzrə tədbirlər hesabat ilində də davam etdirilib. Yoxlamaların dayandırılması ilə bağlı qanunun qəbulundan sonra ötən il vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq sahəsində cəmi 60 yoxlama keçirilib.

Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə bu yoxlamaların sayı 62 minə yaxın olub. Sahibkarların maarifləndirilməsi məqsədilə ötən il regionlarda 3400 sahibkarın iştirakı ilə 33 işgüzar forum reallaşdırılıb.

Vergilər Nazirliyi sahibkarlığın formalaşması, inkişafı və stimullaşdırılmasını yaxşılaşdırmaq üçün sahibkarlıq subyektlərində yoxlamaların dayandırılmasına baxmayaraq, operativ vəziyyətə nəzarət edir. Belə ki, 2015-ci ildə səyyar vergi yoxlaması üzrə açılmış qərarların sayı 4704 olduğu halda, 2016-cı ildə bunların sayı 2034 olub ki, bu da səyyar vergi yoxlama qərarlarının sayının təxminən 2,3 dəfə azaldılması deməkdir. 2015-ci ildə 39066 vergi ödəyicisi üzrə vergi nəzarəti tədbiri keçirilərək, 38190 akt tərtib edildiyi halda, 2016-cı ildə 4743 akt tərtib edilib. Bütün bu yoxlamalar ölkədə sosial-iqtisadi inkişafın əsası olan innovasiyalı sahibkarlığın formalaşmasına, inkişafına və stimullaşdırılmasına tam şərait yaratmaqla sahibkarlıq subyektlərilə "partnyorluq münasibətlərinin qurulması və dərinləşdirilməsi" prinsipidir. Azərbaycan Respublikasının Vergilər Nazirliyi sahibkarlıq subyektləriylə partnyorluq subyektlərinin qurulmasına artıq bir neçə ildir başlasa da, yeni yanaşmada bu münasibətlərin konkret əsaslara keçirilməsi və dəqiqləşdirilməsi, vergi ödəyicilərinin öhdəliklərinin dəqiqləşdirilməsi, onlara müasir və innovativ xidmətlərin göstərilməsi əsas götürülür. Bu məqsədlə beynəlxalq təcrübədən faydalanmaqla vergi ödəyiciləri üçün "Yaşıl dəhliz" prinsipi əsasında innovativ yeniliklərə söykənən fərdi və sürətli ünvanlı xidmətlər sisteminin tətbiqi qərara alınıb.

Ölkənin iqtisadi potensialından səmərəli istifadə və ixracyönümlü məhsul istehsalının təşviqi istiqamətində həyata keçirilmiş tədbirlər ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələr əldə etməyə imkan vermişdir.

17 iyul 2017-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası aqrar sahədə sahibkarlığın inkişafını sürətləndirmiş, regionlarda əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan daha effektiv istifadə olunmasına, infrastrukturun müasirləşdirilməsinə və əhalinin məhsuldarlığının artırılmasına bir daha zəmin yaratmışdır.

**(ardı var...)**

## Azərbaycan daha bir beynəlxalq tədbirə ev sahibliyi edəcək



Bakıda "Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya sərgisi", habelə "Daşınmaz Əmlak, Özəlləşdirmə və İnvestisiyalar" mövzusunda beynəlxalq konfrans keçiriləcək. Bu barədə Trend-ə Əmlak Məsələləri Dövlət Komitəsindən məlumat verilib.

Bildirilir ki, Əmlak Məsələləri Dövlət Komitəsi, Türkiyənin ElanExpo və Atılım Fuarcılık şirkətlərinin birgə təşkilatçılığı ilə 28-30 noyabr tarixlərində Baku Expo Mərkəzində "Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya sərgisi" keçiriləcək. Bununla yanaşı, sərginin II günü, noyabr 29-da Baku Expo Mərkəzində "Daşınmaz Əmlak, Özəlləşdirmə və İnvestisiyalar" mövzusunda beynəlxalq konfrans təşkil ediləcək. Sərginin açılışı mərasimində habelə konfransda Komitə sədri Kərəm Həsənov, aidiyyəti xarici dövlət qurumlarının rəhbərləri, səfirliklərin və beynəlxalq şirkətlərin nümayəndə heyətləri iştirak edəcəklər.

Ötən il də uğurla təşkil olunan sərginin əsas məqsədi Azərbaycanda daşınmaz əmlak sektorunun imkanlarının nümayiş etdirilməsi, bu sahəyə marağın artırılması, həmçinin özəlləşdirmə prosesində xarici və yerli investorların iştirakının daha da genişlənməsidir. Özəlləşdirilmiş müəssisələrə kapital axını ölkənin makroiqtisadi göstəricilərinin, məşğulluğun səviyyəsinin artımına, yeni iş yerlərinin yaradılmasına, ixrac potensialının yüksəlməsinə səbəb olacaq. Həmçinin, bu, ölkəmizin beynəlxalq nüfuzunun artımına, dünya bazarlarına çıxış imkanlarının genişlənməsinə və daşınmaz əmlak bazarında iqtisadi yüksəlişə gətirib çıxaracaq. Bu mühüm və böyük tədbir həm yerli, həm də beynəlxalq müstəvidə tikinti sektoruna aid nəhəng şirkətləri, daşınmaz əmlak sahəsindəki brend layihələri, əmlak sektoru üzrə investorları Azərbaycanda professional bir məkanda toplayacaq.

Sərgidə 14 ölkədən – Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Birləşmiş Krallıq, Portuqaliya, Fransa, İspaniya, Polşa, İtaliya, Rusiya, Kipr, Andorra, Gürcüstan daxil olmaqla 70-ə yaxın şirkət iştirak edəcək. Sərgi iştirakçıları tərəfindən 140-dan çox layihə nümayiş olunacaq. Ötən il baş tutan sərgidə Türkiyə, BƏƏ, Macarıstan, Rusiya, İspaniya, Portuqaliya, Lüksemburq, Kipr, Gürcüstan, Ukrayna kimi ölkələrdən 30-a yaxın xarici şirkət iştirak edib. İştirakçılar üçün maraqlı olacaq pavilyonlardan biri də Əmlak Məsələləri Dövlət Komitəsinin pavilyonudur. Burada sahibkarlar və ölkəyə investisiya yatırmaqda maraqlı olan sərmayeçilər üçün özəlləşdirmə prosesi haqqında məlumatlar, komitənin fəaliyyət istiqamətləri üzrə vətəndaşlara təqdim edilən elektron xidmətlər və bütün respublika üzrə torpaqların effektiv idarə edilməsində mühüm əhəmiyyət daşıyan torpaqların elektron uçotuna dair işlər barədə məlumatlar nümayiş etdiriləcək. Sərgi çərçivəsində müxtəlif yerli və xarici tikinti şirkətləri tərəfindən endirimlər nəzərdə tutulub. Bununla yanaşı, bir mənzil üzrə uduşlu lotereya keçiriləcək. Sözügedən layihələrlə yanaşı, həmçinin dövlət sifarişi əsasında inşa edilən sosial mənzillər və Bakı şəhərinin müxtəlif rayonlarında həyata keçirilən pilot layihələrin də təqdimatı olacaqdır. Belə layihələrin bir platformada təqdimatı əmlak alıcılarına təklifləri və fürsətləri müqayisə etmək və sərfəli variantları seçmək imkanı da qazandırır.

"Daşınmaz Əmlak, Özəlləşdirmə və İnvestisiyalar" mövzusunda keçiriləcək beynəlxalq konfransın məqsədi isə daşınmaz əmlak idarəçiliyi, o cümlədən ölkəmizdə daşınmaz əmlak bazarının formalaşdırılması sahəsində xarici ölkələrin aidiyyəti dövlət, qeyri-hökumət və özəl qurumları ilə əlaqələrinin qurulmasıdır.

Konfransda Almaniya, Yunanıstan, Türkiyə, BƏƏ, Belarus, Birləşmiş Krallıq, Polşa, Macarıstan, Kipr, Portuqaliya, İspaniya və digər ölkələrdən, eləcə də xarici dövlətlərin Azərbaycanda akkreditə olunmuş səfirliklərindən, beynəlxalq təşkilatlardan, yerli və xarici biznes qurumlarından, bələdiyyələr və mərkəzi icra hakimiyyəti orqanlarından 100-dən çox nümayəndənin iştirakı nəzərdə tutulur.

## Azərbaycan yeni gömrük rüsumları sisteminə keçir

Nazirlər Kabineti "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ni təsdiq edib. Trend-in məlumatına görə, müvafiq qərar gömrük-tarif mexanizminin daha da təkmilləşdirilməsi yolu ilə xarici iqtisadi fəaliyyətin səmərəliliyinin artırılması, ölkədə rəqabətədavamlı məhsulların istehsalı, daxili bazarın qorunması və




qeyri-neft sektorunun davamlı inkişafında dövlət dəstəyinin daha da gücləndirilməsi, idxal rüsumlarının çoxpilləli sistemdən azpilləli sistemə keçirilməsi, habelə "Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem haqqında" Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya Düzəliş Protokoluna qoşulmaq barədə" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodların Beynəlxalq Harmonik Sistemin yeni variantına uyğunlaşdırılması məqsədilə qəbul edilib.

Qərar 2018-ci il 1 yanvar tarixindən qüvvəyə minir.

## AYİB-dən Azərbaycanın 2018-ci il iqtisadiyyatı üzrə proqnoz

2018-ci ildə Azərbaycan iqtisadiyyatı 2 faiz arta bilər.

Trend-in məlumatına görə, bu barədə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) yenilənmiş hesabatında bildirilir.

Bu il AYİB-in proqnozlarına görə, ölkə ÜDM-inin 0,5 faiz azalması gözlənilir.

Bankın analitiklərinin fikrinə görə, gələn il iqtisadiyyat artımına "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qaz hasilatının başlanması və Trans-Anadolu boru kəmərinin işə düşməsi təsir edəcək.

Bunula belə, hesabatda qeyd olunur ki, makroiqtisadi sabitliyin təmin edilməsi üçün və hökumətə likvidliyin saxlanması üçün sərt pul-kredit və fiskal siyasətə riayət etmək lazımdır.

European Bank
for Reconstruction and Development

AYİB-in 2018-ci il üçün proqnozları Azərbaycan hökumətinin gözləntilərindən çoxdur. Belə ki, ölkə hökuməti 2018-ci ildə Azərbaycanın real ÜDM artımını 1,5 faiz səviyyəsində proqnozlaşdırır. Hökumət 2017-ci il üçün iqtisadi artımı 0,3 faiz səviyyəsində gözləyir.

AYİB Azərbaycan ilə 1992-ci ildən əməkdaşlıq edir. Bu müddət ərzində bank ölkə iqtisadiyyatına 2,8 milyard dollara yaxın investisiya qoyub.

# BİR ÖMRÜN SALNAMƏSİ



***Sovet dövründə Azərbaycanın bir İttifaq respublikası olaraq iqtisadi inkişafına, onun Moskva qarşısında maraqlarının müdafiəsinə, respublikanın ali idarəçilik orqanlarının fəaliyyətinin təkmilləşməsi işinə şərəflə xidmət etmiş, bu sahədə öz töhfəsini vermiş çoxsaylı vətənpərvər dövlət qulluqçuları arasında Mustafa Molla oğlu Mustafayevin adını da xüsusi fəxrlə çəkmək olar. Uzun illər respublikanın aqrar sektorunda fəaliyyət göstərmiş, sonralar Azərbaycan SSR Nazirlər Sovetində məsul vəzifələrdə çalışmış Mustafa müəllim ömrünü ləyaqətlə yaşayaraq, bu günlərdə həyatla vidalaşmışdır.***

Mustafa müəllim 1929-cu ildə Qazax-Ağstafa elinin Qıraq Kəsəmən kəndində anadan olmuşdur. Onun uşaqlığı və gəncliyi çətin dövrə düşmüşdür. 30-cu illərin kolxoz quruculuğu, siyasi repressiyalar, 40-cı illərdə qanlı müharibə, sonra isə savaşdan çıxmış ölkədə insanların çəkdikləri yoxsulluq və sıxıntılar onun həyatının ağır sınaqları olmuşdur.

Mustafa müəllim hələ uşaqlıq yaşlarında atasını itirmişdi. O, Stalin repressiyalarının qurbanı olmuş atası Molla kişinin tutulmasını belə xatırlayırdı: "1937-ci ilin oktyabr ayında bir gecə pəncərəmizi döydülər və bir səs dedi: "Molla dayı, dur, hazırlaş gedək". O, elə bil bunu gözləyirdi, çünki hər gün kimisə aparırdılar. Biz o axşam gec yatmışdıq, ona görə hamı oyaq idi. Atamı apardılar. O, bir daha geri qayıtmadı. Həmin gecə Məcid (Mustafa müəllimin kiçik qardaşı) səhərə qədər ağladı. Atam 1942-ci ildə Rusiyanın Çita vilayətində sürgündə vəfat etdi".

Molla kişi Qazax-Ağstafa elində öz alicənablığı və ürəyiaçıqlığı ilə tanınmışdı. Qıraq Kəsəmənin ağa nəslindən olan Xəlil bəyin oğlu sonralar Mustafa müəllimə onun atasının xeyirxahlığı haqqında fikirlərini bölüşüb deyirdi: "20-ci illərdə Qıraq Kəsəməndə hökumət malımızı əlimizdən almışdı. Bir gün evimizin yanında yol kənarında oturmuşdum, bir az da xəstə idim. Bu zaman Molla dayı yol ilə gedərkən ayaq saxladı və məndən soruşdu: "A bala, sizin əkin yeri niyə şumlanmayıb?" Dedim ki, "dayı, öküzümüzün biri ölüb, tək öküzlə də yer şumlamaq olmaz, həm də heç toxumumuz da yoxdur ki, səpin aparaq". Bir az yoluna davam etdi və birdən dayanıb geri qayıtdı, dedi: "Sən hazırlaş, üç gündən sonra bizim uşaqlar İrəvana heyvan aparacaqlar, onlara yoldaş ol". Biz İrəvana xeyli dana, camış potası apardıq, Molla dayı onları qəssablara satdı, qayıdıb gəldik. Kəndə gələndə mənə o qədər pul verdi ki, mən bir cüt öküz və xeyli toxum aldım, yerimizi şumlatdım, səpdirdim, böyük külfətimiz aclıqdan xilas oldu".

Molla kişinin həbsindən sonra böyük ailənin bütün qayğıları onun həyat yoldaşı və əlində dörd körpə övladı qalmış Həbibə xanımın üzərinə düşdü. Və təbii ki, bir az böyüdükdən sonra Mustafa da var gücü ilə anasına dəstək olmağa çalışırdı.

Bir neçə il məktəbdə oxuduqdan sonra Mustafa müəllim Qazax şəhərində Kənd Təsərrüfatı Texnikumuna qəbul olmuş, onu əla qiymətlərlə bitirmişdi. Hərbi xidmətini çəkdikdən sonra o, Kənd Təsərrüfatı İnstitutunun qiyabi şöbəsində təhsilini başa vurmuş və 1965-ci ilə qədər Qazaxda kənd təsərrüfatı sahəsində müxtəlif vəzifələrdə işləmişdi. Öz işini vicdanla və peşəkarlıqla görən Mustafa müəllim Respublika Kənd Təsərrüfatı Nazirliyi sistemində gənc və bacarıqlı kadr kimi tanınmışdı. 1965-ci ildə o, Bakıya işə dəvət edilərək, Respublika Sovxozlar Trestinin plan-iqtisad şöbəsinin rəisi, üç ildən sonra isə Nazirlər Soveti sədrinin müavininin köməkçisi vəzifəsinə təyin edildi.

1969-cu ildə milli lider Heydər Əliyev respublika rəhbərliyinə gəldikdən sonra ölkədə aktiv sənayeləşmə başladı, yeni-yeni zavod və fabriklar tikildi, infrastruktur yeniləşdi, kənd təssərüfatı böyük inkişaf mərhələsinə qədəm qoydu. Savadlı və bacarıqlı kadrlara qabağa çəkilməyə geniş meydan verildi. Ona görə də Mustafa müəllim Nazirlər Sovetində kənd təsərrüfatı şöbəsinə böyük referent vəzifəsinə irəli çəkilmişdi. O, bu dövrü belə xatırlayırdı: "Bu vəzifədə işlədiyim dövrdə Mərkəzi Komitənin kənd təsərrüfatı üzrə katibi Hacıağa İbrahimov məni Mərkəzi Komitənin tapşırığı ilə bir dəfə komissiyanın sədri kimi Gədəbəy rayonuna, bir dəfə də Şamxor, Tovuz, Qazax rayonlarına xüsusi tapşırıqla ezamiyyətə göndərdi. Hər iki halda tapşırıq barədə geniş arayış təqdim etmişdim. Bir qədər sonra mən Nazirlər Soveti sədrinin katibliyində işləyərkən bildim ki, o, məni Mərkəzi Komitənin aparatında işə götürmək istəyirmiş, Heydər Əliyev soruşub ki, "Əli İzmailoviç (Nazirlər Sovetinin sədri) nə deyir?". Cavab veriblər ki, "O, buraxmaq istəmir". Heydər Əliyev soruşub: "Bəs, onda sən nə istəyirsən?". Cavab verib ki, "yaxşı işçidir, bir neçə dəfə yoxlayıb sınamışam". Heydər Əliyev deyib: "Əli İzmailoviçə də yaxşı işçi lazımdır".

1977-ci ildə Mustafa müəllim Respublika Nazirlər Soveti sədrinin köməkçisi vəzifəsinə, beş ildən sonra isə plan-maliyyə şöbəsinin müdiri vəzifəsinə təyin edilir. Bu iş olduqca məsuliyyətli və ağır sahə sayılırdı, çünki o dövrdə Respublika Dövlət Plan Komitəsi, Maliyyə Nazirliyi, Dövlət Təchizat Komitəsi, Dövlət Statistika Komitəsi, Dövlət Qiymət Komitəsi, Dövlət Əmək Komitəsi, Dövlət Material Ehtiyatları Komitəsi, Dövlət Bankının Azərbaycan Respublika Kontoru, Dövlət Tikinti Bankının Azərbaycan Respublika Kontoru, Dövlət Əmanət Bankının Respublika Kontoru bu şöbənin kuratorluğunda idi. Şöbə özü isə Nazirlər Soveti sədrinin kuratorluğunda idi. Mən Nazirlər Sovetində həmin şöbədə 3 il böyük referent və 7 il şöbə müdirinin müavini vəzifəsində işləmişəm, onun öz işinə nə qədər can yandırdığının, nə dərəcədə məsuliyyətlə yanaşdığının, özünə və işçilərinə qarşı nə qədər tələbkar olduğunun şahidi olmuşam.

***O vaxt Nazirlər Soveti nazirlik, komitə, baş idarələrin işinə böyük koordinasiya və nəzarət işləri həyata keçirirdi, ölkənin sosial-iqtisadi inkişafında nəhəng işlər aparırdı, illik və 5 illik proqnozların tərtibi, dövlət büdcəsinin hazırlanması, təsdiqi və icrasına nəzarət işlərinihəyata keçirirdi. Bu işlərdə Mustafa müəllimin də xidmətləri böyük idi. Mustafa müəllim həm də çox vətənpərvər insan idi. Onun bütün fikirləri və amalı həmişə respublikanın mənafeyini qorumaq, onun iqtisadi inkişafına, xalqın rifahının yüksəldilməsinə xidmət etməkdən ibarət idi.***

1980-ci illərin sonunda Azərbaycana qarşı ermənilərin çıxışları və təcavüzü başladığı zaman Mustafa müəllimin ürəyi də bütün yurdunu sevən ziyalılar kimi xalqı ilə bir vururdu. O, 1990-cı il Qanlı Yanvar hadisələrini yada salıb deyirdi: "Mən yanvarın 20-dən 21-nə keçən gecə Nazirlər Soveti aparatında məsul növbətçi idim, bütün gecə atəş səsləri eşidilirdi, vətəndaşlardan arasıkəsilmədən telefon zəngləri gəlirdi: "Bizi qırırlar, evimizi güllə-borana tuturlar". Mən Bakının komendantı, general Dubinyaka bir neçə dəfə zəng vurub dedim: "Göstəriş verin, atəşi dayandırsınlar". O isə deyirdi: "Tapşırın, balkondan əsgərlərə daş atmasınlar". O gecə mən infarkt keçirdim. Fevralın ikisinədək şiddətli ağrılarla işə getməkdə davam edirdim, ağır amerikan dərmanları qəbul edirdim. Fevralın 2-də şöbəmin böyük referenti Fikrət Yeganovla poliklinikaya gəldim. Baş həkimin müavini İxtiyar Sultanov məni müayinə edən kimi xərəyə uzadıb təcili xəstəxanaya apardı. Reanimasiya şöbəsində gözəl həkim Fuad Rəhman oğlu Əliyev məni 80 gün müalicə etdi. İyun ayında işə qayıtdım. Xəstəxanada olduğum müddətdə Nazirlər Sovetinin sədri Həsən Həsənov mütəmadi zəng vurub, baş həkimdən mənim müalicəmin gedişi ilə maraqlanmış, müalicəni nəzarətdə saxlamağı tapşırmışdı".

Bu hadisədən qısa müddət sonra Xalq Cəbhəsi hakimiyyətə gələndə Mustafa müəllimi Nazirlər Sovetindəki işindən ayırdılar. Mərkəzi Bankda (keçmişdə Milli Bank) katibliyin rəisi kimi bir neçə il fəaliyyətdə oldu. Milli Bankda normativ hüquqi sənədlərin hazırlanmasında, idarə heyətinin işinin təşkilində və sənədlərin rəsmiləşdirilməsində öz biliklərini əsirgəmədi.

Dövlət və hökumət Mustafa müəllimin fəaliyyətini aşağıdakı orden və medallarla təltif etməklə qiymətləndirib: "1941-1945-ci illər Böyük Vətən müharibəsində əmək rəşadətinə görə" medal, "Əmək rəşadəti" medalı iki dəfə, "Şərəf nişanı" ordeni, "Əmək veteranı" medalı, "Böyük Vətən Müharibəsində qələbənin 30, 40, 60 illiyi" medalları (1975, 1985, 2005-ci illər).

***Mustafa müəllimin gözəl ailəsi var, onlar əsasən maliyyə-bank sahəsi üzrə mütəxəssisdirlər, nəvəsi Türkiyədə adlı-sanlı universitetlərin birində təhsil alır.***

***Mustafa Molla oğlu Mustafayev 12 noyabr 2017-ci ildə dünyasını dəyişdi. Onu tanıyanların və yaxınlarının qəlbində Mustafa müəllimin əziz xatirəsi daim yaşayacaqdır.***

Keçmiş Nazirlər Soveti sədrinin birinci müavini Musa Məmmədov belə deyir: "Mən Mustafa müəllimi uzun müddət tanımışam və bir yerdə işləmişəm, olduqca ləyaqətli və fədəkar bir insan idi, işləmək onun alın yazısı idi, heç vaxt yoruldum deməzdi, gözəl mütəxəssis idi".

Keçmiş Nazirlər Soveti sədrinin müavini Dadaş Acanov isə belə deyir: "Mən Mustafa müəllimlə işləmişəm, olduqca zəhmətkeş, dövlət idarəetmə sistemini bilən bir insan idi. Verilən tapşırıqları yerinə yetirmək üçün yuxusuna da haram qatırdı".

Keçmiş yeyinti sənaye naziri Kamil Məmmədovun dediklərindən: "Mən Mustafa müəllimi uzun müddət tanımışam, həddən ziyadə sadə, işgüzar, sədaqətli bir insan idi. Nazirlər Soveti aparatında ən bacarıqlı işçilərdən biri idi, yaxşı ideyaları, qələmi var idi".

O vaxt Nazirlər Sovetində təsərrüfat idarəsində, indi isə Nazirlər Kabinetində işlər müdiri işləyən Süleyman Səfiyev: "Mustafa müəllim çox az danışan, çox iş görən, ləyaqətli, təvəzökar bir insan idi. Daim işləmək həvəsi var idi. İstirahət günləri fiziki işlər görməyi olduqca sevərdi, ailəcanlı, gözəl ağsaqqal idi.

**Allah rəhmət eləsin!**

**Əvəz Ələkbərov,**
**İqtisad elmləri doktoru,**
**professor, respublikanın**
**əməkdar müəllimi,**
**Dövlət İqtisad Universitetinin**
**"Maliyyə və maliyyə institutları" kafedrasının müdiri,**
**"Professorlar klubunun"**
**rəyasət heyətinin sədri**

# UNEC-də "Bir günlük tələbə" olmaq istəyənlərin sayı artır



UNEC-də 2017/2018-ci tədris ilindən yuxarı sinif şagirdlərinə "bir günlük tələbə" olmaq şansı yaradılır. Həftə ərzində paytaxtın 10, 27, 83, 182 saylı məktəblərinin və Bakı Avropa Liseyinin X və XI sinif şagirdləri "UNEC-də bir gün" layihəsində iştirak ediblər. Şagirdlərin əksəriyyəti maliyyə, mühasibat uçotu və audit, dünya iqtisadiyyatı, biznesin idarəedilməsi, menecment ixtisaslarına maraq göstəriblər.

"Bir günlük tələbə"lərə şərti tələbə bileti təqdim olunub. "Tələbə bileti" dərslərdə iştirak etməyə, kitabxana və yeməkxanadan istifadə etməyə icazə verir. "Bir günlük tələbə"lərə gələcəkdə ixtisas seçimində çətinlik çəkməmələri üçün konsultasiya xidməti də göstərilib.

Cənubi Qafqazın ən böyük iqtisadyönümlü ali təhsil ocağı olan UNEC-də dərs və imtahan prosesinin ictimaiyyətə açıq keçirildiyini müsbət hal kimi qarşılayan şagirdlər "Bir günlük tələbə" olaraq imtahan sessiyasını da izləyə biləcəklərindən məmnun olublar. Onlar gələcəkdə UNEC-lə London Universiteti/London İqtisadiyyat Məktəbi və Montpellier Universiteti ilə bakalavrlar üçün olan ikili diplom proqramı, eləcə də Universitet Daxili İki Diplom (UDİD) proqramından faydalanmaq istədiklərini bildiriblər.

"UNEC-də bir gün" layihəsində iştirak etmək istəyənlər 497-58-63 telefon nömrəsinə zəng edə, yaxud UNEC-in rəsmi Facebook səhifəsi ilə əlaqə saxlaya bilərlər.

# Rusiyanın nüfuzlu universiteti UNEC təcrübəsini öyrənmək istəyir

Rusiya Federasiyasının Belqorod Dövlət Milli Tədqiqat Universitetinin nümayəndə heyəti UNEC-də səfərdədir.

UNEC rektoru, professor Ədalət Muradov qonaqlara universitetin inkişaf strategiyasının istiqamətlərini açıqlayıb. O bildirib ki, dünya səviyyəli universitetlər sırasında olmağı hədəfləyən UNEC xaricdə filialı olan və dörd dildə təhsil verən yeganə Azərbaycan ali təhsil müəssisəsidir. Rektor UNEC-in QS-in "İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya" regionu üzrə reytinq cədvəlində regionun 161-170 ən yaxşı universiteti arasında qərarlaşdığını, iqtisadyönümlü universitetlər sırasında isə regionun 4-cü ən yaxşı universiteti olduğunu diqqətə çatdırıb. Ə.Muradov qonaqlara UNEC-də tətbiq edilən Elektron Universitet Modeli və Diferensial Əməkhaqqı Sistemi barədə ətraflı məlumat verib.



UNEC-də yaradılan Rus İqtisad Məktəbində 9 ixtisas üzrə kadr hazırlığının həyata keçirildiyini bildirən rektor tələbələrin Rusiyanın nüfuzlu korporativ strukturlarında istehsalat təcrübəsinə göndərildiklərini diqqətə çatdırıb.

UNEC-in qabaqcıl Rusiya universitetləri ilə əlaqələrinin müsbət istiqamətdə inkişafına diqqət çəkən rektor, yüksək keyfiyyətli rusdilli iqtisadçı kadrların hazırlanması üçün Rusiya federasiyasının digər universitetləri ilə əməkdaşlığa hazır olduğunu bildirib. UNEC-lə tanışlıqdan məmnunluğunu ifadə edən Belqorod Dövlət Milli Tədqiqat Universitetinin beynəlxalq əməkdaşlıq üzrə prorektoru Vladislav Kuçmistıy universitetin beynəlxalq əlaqələr sahəsində əldə etdiyi uğurları müsbət dəyərləndirib. O, UNEC-in dünyanın tanınmış universitetləri ilə ikili diplom proqramı sahəsində uğurlu təcrübəsini yüksək qiymətləndirərək, bu sahədə əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Rus İqtisad Məktəbi və Beynəlxalq İqtisadiyyat Məktəbində keçirdiyi görüşlərdən söz açan V.Kuçmistıy UNEC tələbələrində çox yüksək akademik səviyyə müşahidə etdiyini diqqətə çatdırıb.

Görüşdə təhsil və elmi-tədqiqat sahəsində əlaqələrin genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Qonaqlar UNEC təcrübəsini öyrənməkdə maraqlı olduqlarını bildiriblər. Müzakirələrdən sonra tərəflər arasında elmi və tədris sahəsində əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədə əsasən, tərəflər müəllim-tələbə mübadiləsi həyata keçirəcək, birgə yay və qış məktəbləri təşkil edəcəklər. O cümlədən, elmi əməkdaşlığın qurulması və tədrisdə qabaqcıl metodların inkişafı istiqamətində birgə addımlar atılacaq, elmi seminar və konfranslar təşkil olunacaq.

# Maliyyə lizinqinin vergiyə cəlb edilməsi



Bazar iqtisadiyyatı şəraitində lizinq əməliyyatları olduqca aktualdır və bu səbəbdən də mövzu praktiki əhəmiyyət daşıyır.

Lizinq ixtisaslaşmış lizinq şirkətinin, firmasının, bank şöbəsinin lizinq alan üçün əmlakın müəyyən müddətə icarəyə verilməsi ilə əlaqədar olaraq əsas vəsaitlərə (torpaq, tikili və avadanlıqlara) investisiya qoyuluşunun maliyyələşdirilməsidir.

Maliyyə lizinqinin uçotu zamanı həmin lizinqə uyğun olaraq: a) əldə edilmiş aktivlər kapitallaşdırılmalıdır; b) ödənişlərin faiz elementi (hissəsi) mənfəət və zərər haqqında hesabatda uçota alınmalıdır.

Bazar iqtisadiyyatı şəraitində maliyyə lizinqi əməliyyatlarının geniş yayılması, həmin əməliyyatların həm lizinq verən, həm də lizinq alan üçün üstün cəhətləri göstərilmişdir. Bütün iqtisadi fəaliyyətlərdə olduğu kimi, maliyyə lizinqini həyata keçirən subyektlərin də başlıca məqsədi mənfəət əldə etməkdir. Qeyd etmək lazımdır ki, dövlət büdcəsi gəlirlərinin formalaşması mənbələri çoxşaxəlidir. Məhz belə gəlir mənbələrindən biri və başlıcası vergilərdir. Dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında verginin xüsusi çəkisinin yüksək olması və eləcə də maliyyə lizinqi əməliyyatlarının genişləndiyi bir zamanda bu əməliyyatların vergiyə cəlb olunması xüsusi əhəmiyyət kəsb edir.

İlk öncə lizinq əməliyyatlarının hüquqi formasını aydınlaşdıraq. Belə ki, Mülki Məcəllənin 38-ci fəsli lizinq münasibətlərindən bəhs edir. Həmin Məcəllənin 747.1-ci maddəsinə əsasən, lizinq müqaviləsinə görə lizinq verən müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) lizinq alanın istifadəsinə verməyə borcludur. Lizinq alan müəyyənləşdirilmiş dövriliklə muzd ödəməyə borcludur.

Mülki Məcəllənin 747-1-ci maddəsi lizinq müqaviləsinin subyektlərindən bəhs edir. Belə ki, lizinq müqaviləsinin subyektləri lizinq verən, lizinq alan və satıcıdır (mal verəndir). Lizinq verən lizinq müqaviləsinə əsasən cəlb edilmiş və ya özünə məxsus maliyyə vəsaiti hesabına əldə etdiyi və mülkiyyətində olan əşyanı lizinq obyekti kimi lizinq alana müəyyən haqla, müəyyən müddətə və şərtlərlə (mülkiyyət hüququnun lizinq alana keçməsi və ya keçməməsi şərti də daxil olmaqla) müvəqqəti sahibliyə və ya istifadəyə verən hüquqi və ya fiziki şəxsdir. Lizinq alan lizinq müqaviləsinə uyğun olaraq, lizinq obyektini müəyyən haqla, müəyyən müddətə və şərtlərlə müvəqqəti sahibliyə və istifadəyə qəbul edən hüquqi və ya fiziki şəxsdir. Satıcı (mal verən) alqı-satqı müqaviləsinə əsasən lizinq obyektini lizinq verənə satan hüquqi və ya fiziki şəxsdir.

Mülki Məcəllənin 747-5-ci maddəsinə əsasən, lizinq əməliyyatlarının hüquqi forması ya lizinq verənlə lizinq alan arasında bağlanmış lizinq müqaviləsi və lizinq verənlə satıcı arasında bağlanılmış alqı-satqı müqaviləsidir, ya da həmin şəxslər arasında bu Məcəllənin 747-5.2-ci maddəsinə və lizinqlə bağlı digər maddələrinə müvafiq surətdə bağlanılmış üçtərəfli müqavilədir. Məcəllənin 747-5.2-ci maddəsinə görə, lizinqlə əlaqədar bağlanılan alqı-satqı müqaviləsində bu Məcəllə ilə nəzərdə tutulmuş şərtlərlə yanaşı, aşağıdakılar da göstərilməlidir: 1) lizinq obyekti lizinq verən tərəfindən xüsusi olaraq lizinqə verilmək üçün əldə edilir; 2) lizinq müqaviləsində ayrı hal nəzərdə tutulmayıbsa, lizinq alan lizinq obyektinin satıcısı ilə lizinq verən arasında bağlanılan alqı-satqı müqaviləsindən irəli gələn alıcı hüquqlarına malikdir.

Mülki Məcəllənin qeyd edilən maddələrindən aydın olur ki, bir çox hallarda lizinq müqavilələri üçtərəfli saziş formasında olur: lizinqə verilməli olan avadanlığın satıcısı, lizinq şirkəti (lizinq verən) və lizinq alan. Lizinq münasibətlərində lizinq şirkəti ilə lizinq alan arasında bağlanan lizinq müqaviləsi və avadanlığın satıcı ilə lizinq verən arasında bağlanan alqı-satqı müqaviləsi azı iki müqavilənin bağlanmasını və ya bir üçtərəfli müqavilənin bağlanmasını nəzərdə tutur.

Lizinqlə əlaqədar olaraq satıcı ilə alqı-satqı müqaviləsinin bağlanılması mütləq şərt kimi göstərilmişdir və bu səbəbdəndir ki, mövcud mülki qanunvericilikdə lizinq əməliyyatlarında satıcının iştirakı mütləq şərt kimi göstərilir.

Həmçinin, qeyd etmək lazımdır ki, qanunvericilikdə lizinq verənlə satıcının eyni şəxs ola bilməsi halı istisna edilməmişdir. Bu hal onda baş verə bilər ki, lizinq verən əvvəlcədən hər hansı bir əmlakı əldə edərkən və alqı-satqı müqaviləsi imzalayarkən mütləq qaydada həmin əmlakı lizinq məqsədi ilə əldə etdiyini həmin müqavilədə göstərsin. Mülki Məcəllənin 748-2.1-ci maddəsində qeyd edilir ki, lizinq alana müvəqqəti sahibliyə və ya istifadəyə verilmiş lizinq obyekti lizinq verənin mülkiyyətidir və bu maddə lizinq obyektinin lizinqdən əvvəl, yaxud sonra lizinq verənin mülkiyyətində olmasını şərtləndirmir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 140.6-cı maddəsinin həmin Məcəllənin 13.2.14.1, 140.2, 164.1.2-ci maddələri və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747-1 və 747-5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair 12 yanvar 2017-ci il tarixli Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarına qeyd edilir ki, "Maliyyə lizinqi əməliyyatı özündə lizinq və alqı-satqı müqavilələrini birləşdirən tam bir əməliyyatdır. ƏDV məqsədləri üçün maliyyə lizinqi əməliyyatı maliyyə xidmətlərinin tərkib hissəsi kimi ƏDV-dən azad edilir".

Belə ki, Vergi Məcəlləsinin 164.1.2-ci maddəsinə görə, maliyyə xidmətlərinin göstərilməsindən ƏDV tutulmur. Vergi Məcəlləsinin 13.2.14.1-ci maddəsində verilmiş maliyyə xidməti anlayışına əsasən, kreditlərin, maliyyə lizinqi əməliyyatlarının, kredit təminatlarının və pul-kredit əməliyyatlarında hər hansı girov və ya lombard təminatının təqdim edilməsi (yaxud verilməsi) və qaytarılması, o cümlədən krediti və ya təminatı təqdim etmiş şəxsin kreditləri və kredit təminatlarını idarə etməsi maliyyə xidmətlərinə aid edilmişdir.

Belə olan halda istər lizinq müqaviləsinin hər üç tərəfinin ayrı-ayrı şəxs olması, istərsə də satıcı ilə lizinq verənin eyni şəxs olması məsələnin mahiyyətini dəyişməməlidir. Qeyd olunduğu kimi, lizinq əməliyyatı çərçivəsində satıcı ilə ayrıca bağlanan əmlakın alqı-satqı müqaviləsində də həmin əmlakın məhz lizinq məqsədi üçün alınması barədə müddəanın öz əksini tapması mülki qanunvericilikdə birmənalı olaraq göstərilmişdir.

(davamı var)

**İsmayılov Xəyal,**
**Vergilər Nazirliyinin Tədris Mərkəzi, baş iqtisadçı, 3-cü dərəcəli müfəttiş**

## Bu ilin 10 ayı ərzində bir sıra mühüm obyektlər istifadəyə verilib

2017-ci ilin yanvar-oktyabr aylarında Bakı şəhərində Bakı Ali Neft Məktəbinin yeni kampusu, Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binası, Pirallahı rayonunda körpü və "Pirallahı" Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, həmin dövr ərzində Balaxanı Sənaye Parkı, Bakı-Tbilisi-Qars dəmir yolu, Pirşağı-Novxanı və Binəqədi Novxanı avtomobil yolu, Yevlax şəhərində Varvara balıqartırma və balıqyetişdirmə zavodu, Lənkəran şəhərində Çəltik zavodu, "Xəzər Palace" otel kompleksi, Balakən rayonunda Balakən Su elektrik stansiyası, Cəlilabad rayonunda dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsi, Ələt-Astara-İran ilə dövlət sərhədi avtomobil yolunun Masallı Cəlilabad hissəsi, Gədəbəy rayonunda Limonad zavodu, 35/10 kV-luq "Gədəbəy" elektrik yarımstansiyası, Göygöl rayonunda Respublika Süni Mayalanma Mərkəzi, Qax rayonunda 110/35/10 kV-luq elektrik yarımstansiyası, Neftçala rayonunda Neftçala Sənaye Məhəlləsi, 110/35/6 kV-luq "Neftçala" yarımstansiyası, Saatlı rayonunda 110/35/10 kV-luq "Sarıcalar" elektrik yarımstansiyası, Salyan rayonunda 110/35/10 kV-luq "Qaraqaşlı" yarımstansiyası, Şəmkir rayonunda "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir avtomat idarəetmə və nəzarət mərkəzi, "Şəmkir Aqroparkı"nın Logistika Mərkəzi, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialı, Zaqatala rayonunda "Bəhmənli" elektrik yarımstansiyasının tikintisi başa çatdırılıb.

Bundan başqa, Naxçıvan Muxtar Respublikasında, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində və Şamaxı rayonunda 2312 şagird yerlik 6 ümumtəhsil məktəb binası, Naxçıvan Muxtar Respublikasında, Mingəçevir şəhərində və Samux rayonunda 524 yerlik 4 məktəbəqədər təhsil müəssisəsi və digər obyektlər istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# PAMBIQÇILIĞIN İNKİŞAFI BİR NEÇƏ SAHƏNİN İNKİŞAFINA GÜCLÜ TƏKAN VERƏ BİLƏR

Azərbaycanda son illər cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu iqtisadi siyasət, müəyyən edilmiş strateji hədəflər sırasında kənd təsərrüfatının inkişafı ön mövqelərə çıxarılıb. Bu, hər şeydən öncə, ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində əldə olunan zəngin tarixi təcrübə, bərəkətli və məhsuldar torpaqlar, təbii iqlim şəraiti ilə bağlıdır. Azərbaycan tarix boyu süfrələrin bəzəyi olan yüz cür nemətin vətəni olmuşdur. Odur ki, bu gün təbii resurslar hesabına ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmək və güclü ixrac potensialı qazanmaq mümkündür.

Bunu şərtləndirən mühüm amillərdən biri Azərbaycanda aqrar sektora hərtərəfli dövlət dəstəyinin göstərilməsidir. Azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafına yaradılan şərait, onların fəaliyyətini bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaq öz bəhrəsini verməkdədir.

Son iki ildə kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı emal müəssisələrinin, xammal təminatının yaradılmasına, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, aqrar sektorda idarəetmə mexanizminin təkmilləşdirilməsinə gətirib çıxarmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qəbul edilən proqramlar, imzalanan sərəncamlar kənd təsərrüfatının kompleks inkişafını özündə ehtiva edir. Prezident tərəfindən keçirilən müşavirələr, görüşlər, söhbətlər ölkəyə valyuta gətirə bilən məhsulların təşviq edilməsinə, fermerlərlə təşəbbüskarlığın artmasına, ruh yüksəkliyinə, maraq və həvəsin artmasına gətirib çıxarmışdır.

Respublikamızda prioritet elan olunan kənd təsərrüfatı məhsullarından biri də pambıqçılıqdır. Sovet təsərrüfat sistemi çökdükdən sonra, digər sahələr kimi pambıqçılıq da ciddi ziyan çəkmiş və istehsal yox dərəcəsinə qədər aşağı düşmüşdür. Kənd adamları uzun illər sevdikləri fəaliyyət sahəsindən məhrum olmuşdurlar. Son bir neçə ildir pambıqçılığın dirçəldilməsinə yönəlik görülən tədbirlər, təsərrüfatların bərpa olunması pambıqçıların inamını özünə qaytarmışdır. Bu gün Aran rayonları başdan-başa ağ örpəyə bürünüb, məhsul tədarükü tamamlanmaq üzrədir.

Ölkəmizdə ən çox pambıq əkilən rayonlardan biri də İmişlidir. İmişlililər bu gün məhsulu sahələrdən itkisiz yığmaq və gələn ilin əkininə hazırlıq görmək məqsədilə gecəni gündüzə qatıb çalışırlar. Yayın isti və quraq keçməsinə baxmayaraq, kənd əməkçiləri yorulmadan çalışmışlar ki, hər qarış torpağa çəkilən zəhmət hədər getməsin.

Bu il İmişlidə 15641,5 hektar sahədə əkin aparılıb. Bu, respublika üzrə ikinci yüksək göstəricidir və ümumi pambıq əkininin 11,4 faizini təşkil edir. Bunun əsas səbəbi İmişlidə pambıq yetişdirmək üçün uyğun iqlim şəraitinin və zəngin əkinçilik təcrübəsinin olmasıdır. Ötən əsrin 70-80-ci illərində rayonda 50 min ton pambıq istehsal olunub. Nə iqlim dəyişib, nə torpaq dəyişib, nə də ki, insanlar. İndi də xariqələr yaratmaq olar, yaradılır da. İmişlililərin bir özəlliyi də bundadır ki, sovet hökuməti dağıldıqdan, kollektiv mülkiyyət forması dəyişib xüsusi mülkiyyətə keçdikdən sonra dövlət dəstəyinin, məhsulun alıcısının az olduğu vaxtlarda da pambıq əkilib becərilmişdir.

Onlar sanki uzun illərdir ki, dövlət başçısının çağırışını gözləyirmiş. Pambıq əkini haqqında sərəncam verilən kimi imişlililər böyük həvəslə pambıq əkininə başladılar. İndi artıq rayonda tanınmış fermerlər zümrəsi yaranıb formalaşıb. Hacırüstəmli kəndinin sakini Əliheydar Süleymanov 1996-cı ildən başlayaraq pambıq əkir, yaxşı işçi və etibarlı tərəfdaş olduğuna görə «MKT-İK» MMC-nin 2004-cü ildə ərazi nümayəndəsi seçilib. Cari ildə o, ailə üzvləri ilə birlikdə 62 hektar sahədə pambıq əkib, 135 ton pambıq yığıb təhvil verib, 10 hektar sahədə isə yığım davam edir, hər hektarın məhsuldarlığı 30 sentner təşkil edir. Bundan başqa, ona təhkim olunan 15 fermer 271 hektar sahədən 500 ton məhsul yığıb təhvil veriblər. Yığım davam etdiyinə görə son rəqəmi demək olmur. Ancaq görülən budur ki, məhsuldarlıq yaxşıdır. Təcrübəli fermer bol məhsul götürməyin sirrini əkin üçün uyğun torpağın seçilməsində, üzvi və mineral gübrələrin düzgün verilməsində, alaqdan təmizləmə, kultivasiya, dərmanlama və suvarma işlərinin optimal müddətdə yerinə yetirilməsində görür.

Fermerlərin fikrincə, ən zəif, suvarılmayan torpaqlardan hektara 20 sentner məhsul götürmək mümkündür. Lakin yüksək aqrotexniki qaydalara əməl olunarsa, 30 sentner və daha çox məhsul götürmək və yaxşı qazanc əldə etmək olar. Bu il Sərxan Novruzov Aranlı kəndində 124 hektar, Rauf Vəliyev Qızılkənd kəndində 120 hektar, Elbrus Abbasov Muranlı kəndində 100 hektar, Valid Hüseynov Mərzəli kəndində 50 hektar pambıq əkini aparıb, «MKT-İK» MMC ilə yanaşı, «CTS-Aqro», «Osmanlı» və «KT» müəssisələri ilə məhsulun tədarükü və təchizatı ilə bağlı müqavilə imzalanıb. Tədarük müəssisələri ilə fermerlər arasında əlaqə yaratmaq, qarşıya çıxan problemləri operativ həll etmək məqsədilə rayon icra hakimiyyətində qərargah yaradılıb.

Heç də belə demək düzgün olmazdı ki, bütün təsərrüfatlarda işlər rəvan gedir, heç bir problem yaşanmır. Rayonda əkini gecikən, ikinci dəfə səpilən, suvarma təminatı lazımi səviyyədə olmayan təsərrüfatlar da vardır.



Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair dövlət dəstəyi haqqında» 2016-cı il 22 oktyabr tarixli sərəncama uyğun olaraq, təhvil verdikləri hər kiloqram xam pambığa görə təsərrüfat subyektlərinə 10 qəpik subsidiyanın verilməsi, eyni zamanda, şirkətlər tərəfindən xam pambığın tədarük qiymətinin artırılması bu sahənin inkişafına təkan verdi. Ölkə başçısının pambıqçılığa göstərdiyi kömək və dəstək fermerlər tərəfindən rəğbətlə qarşılandı. Əgər belə təşəbbüslər olmasaydı, dövlət yardım əlini uzatmasaydı, bəlkə nəsillər arasında əlaqə kəsiləcək və pambıqçılıq ənənəsi tamamilə unudulub yaddan çıxacaqdı.

Ötən əsrin 70-80-ci illərində ona görə yüksək nəticələr qazanıldı ki, pambıqçılıq elmi əsaslarla əkilirdi və ixtisaslı kadrlar tərəfindən idarə olunurdu. Məhz o vaxtlar yetişən kadrlar bu gün fermerlərin karına çatır. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı görülən tədbirlər – yollar, rabitə, internet, enerji, təbii qaz təminatı fermerlərin işini asanlaşdırıb.

Seçilmiş, gec yetişən, lakin soyuğadavamlı və məhsuldar toxum materialı səpildiyinə görə əksər rayonlarda yığıma oktyabr ayında başlanılıb və dekabr ayına qədər davam edəcək. Bu il keçən ildəkinə nisbətən hava şəraiti əlverişli keçir, itki azdır. Hər gün tədarük məntəqələrinə 400 ton məhsul təhvil verilir. Tədarük-təchizat müəssisələri mövsümə yaxşı hazırlaşmış, məhsul toplanması kampaniyasına 26 ədəd kombayn, 92 ədəd traktor, 164 ədəd qoşqu lafeti cəlb olunmuşdur. «MKT–İK» MMC-nin balansında olan Araz məntəqəsi təmir edilmişdir. Cari ildə Kənd Təsərrüfatı Nazirliyi hesabına 4 min ton məhsulu qəbul etmək gücünə malik pambıq qəbulu məntəqəsi açılıb, 12 taya üçün yer hazırlanıb.

Mütəxəssislərin fikrincə, yüksək məhsul istehsalına nail olmaq üçün əkin sahələrindən torpaq nümunələri götürmək və bitkinin tələbatına uyğun şəkildə yemləmə rasionu tətbiq etmək lazımdır.

Bu ilin iyulunda Prezident İlham Əliyevin təsdiq etdiyi «Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı»nda bu sahənin inkişafını təmin edən vəzifələr öz əksini tapmışdır. Həmin sənəddə qeyd edilir ki, ölkəmizin iqtisadi potensialından səmərəli istifadə və ixracyönümlü məhsul istehsalının təşviqi istiqamətində həyata keçirilən tədbirlər ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələr əldə etməyə imkan verəcəkdir. Bu isə regionlarda əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan daha effektiv istifadə olunmasına, infrastrukturun müasirləşməsinə, məşğulluğun daha dolğun şəkildə təmin olunmasına zəmin yaradacaqdır.

Pambıqçılığın inkişafı sahəsində İmişli rayonunun potensialı böyükdür. Suvarılmayan, şoran torpaqların münbitləşdirilməsinə, genişmiqyaslı irriqasiya və meliorasiya tədbirlərinin görülməsinə, müasir suvarma sistemlərinin yaradılmasına və bu yolla yeni torpaqların pambıq əkini üçün yararlı vəziyyətə gətirilməsinə zərurət vardır. Sürətlə keçən zamanla, onun çağırış və tələbləri ilə uyğunlaşmaq lazımdır. Çünki çağdaş dünyada tələb və çağırışlar sanki hər an dəyişir. Məhz bu baxımdan pambıqçılığın inkişafında institusional tədbirlərin görülməsi, eyni zamanda, istehsalda və emalda innovativ texnologiyaların tətbiqi zəruri hal kimi qarşıya çıxır.

Dövlət Proqramında qarşıya qoyulan ən mühüm vəzifələrdən biri də istehsal olunan məhsulun rəqabət qabiliyyətliliyinin artırılması və ixrac standartlarına uyğunlaşdırılmasıdır.

Pambıqçılıq təkcə kənd təsərrüfatı istehsalı demək deyildir. Bununla bir neçə sahənin inkişafı üzvi surətdə bağlıdır – mahlıc, tekstil, toxumçuluq, yem istehsalı və s.

Bu sahələrin hər birinin ahəngdar inkişafı Azərbaycan iqtisadiyyatının möhkəmlənməsinə güclü təkan verə bilər.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# Азербайджан приглашен на 173-е заседание Совета Министров ОПЕК



Азербайджан приглашен на 173-е заседание Совета Министров Организации стран-экспортеров нефти (ОПЕК), которое состоится 30 ноября в столице Австрии Вене.

Как сообщили в Министерстве энергетики, на министерской встрече будут обсуждаться выполнение обязательств по сокращению добычи нефти, повышение квоты производства.

Напомним, что Азербайджан выполняет обязательство по сокращению производства нефти. В октябре текущего года ежесуточная добыча нефти в Азербайджане составила 800,6 тысячи баррелей. Из них 746,8 тысячи баррелей сырая нефть, 53,8 тысячи баррелей – конденсат.

Ежесуточно экспортировано 628 тысячи баррелей сырой нефти, 53,8 тысячи баррелей конденсата, 24,3 тысячи баррелей нефтепродуктов.

Отметим, что ежесуточная добыча в январе по стране составила 793,9 тысяч баррелей, в феврале - 776,4 тысячи баррелей, в марте - 733,3 тысяч баррелей, в апреле - 781,1 тысячи баррелей, в мае - 785,3 тысячи баррелей, в июне - 793,7 тысячи баррелей, в июле - 796,7 тысячи баррелей, в августе 734,8 тысячи баррелей, а в сентябре - 785,7 тысячи баррелей.

ОПЕК неоднократно заявляла о том, что Азербайджан активно выполняет взятые обязательства по сокращение нефтедобычи и является одним из лидеров по выполнению Венского соглашения.

ОПЕК договорилась 30 ноября прошлого года в Вене о сокращении добычи на 1,2 миллиона баррелей в день с октябрьского уровня в целях стабилизации нефтяных цен. Одиннадцать не входящих в ОПЕК стран 10 декабря согласовали сокращение своей добычи суммарно на 558 тысяч баррелей, в том числе Азербайджан — на 35 тысяч баррелей в сутки и выполняет взятое обязательство. 25 мая 2017 года в рамках 172 заседания Совета министров ОПЕК страны-члены организации и не входящие в картель достигли договоренности о продлении срока сокращения добычи нефти до конца первого квартала 2018 года.

# Страны ОПЕК+ не обсуждают увеличение сокращения добычи нефти



Нефтедобывающие страны, входящие и не входящие в ОПЕК, не обсуждают увеличение объемов сокращения добычи нефти в рамках венской сделки (ОПЕК+), сообщил министр энергетики ОАЭ Сухейль аль-Мазруи.

Министр сказал, что нынешние цены на нефть являются логичными,. «Учитывая состояние спроса и предложения на данный момент. Мировой спрос в этом году хороший и превзошел все ожидания. Мы рассчитываем, что он продолжит расти в следующем году», - сказал он.

Аль-Мазруи также отметил, что на рынке нефти еще наблюдается избыток запасов нефти в объеме 158 миллионов баррелей, который должен быть снижен.

Министр считает, что нефтедобывающим странам ОПЕК+ необходимо продлить сделку после первого квартала 2018 года.

ОПЕК договорилась 30 ноября прошлого года в Вене о сокращении добычи на 1,2 миллиона баррелей в день с октябрьского уровня в целях стабилизации нефтяных цен. Одиннадцать не входящих в ОПЕК стран 10 декабря согласовали сокращение своей добычи суммарно на 558 тысяч баррелей, в том числе Азербайджан — на 35 тысяч баррелей в сутки и выполняет взятое обязательство. 25 мая 2017 года в рамках 172 заседания Совета министров ОПЕК страны-члены организации и не входящие в картель достигли договоренности о продлении срока сокращения добычи нефти до конца первого квартала 2018 года.

В Вене 30 ноября состоится встреча министров нефти и энергетики всех 24 государств соглашения о сокращении добычи нефти, входящих и не входящих в ОПЕК. В преддверии этой встречи, 29 ноября, состоится заседание министерского комитета по мониторингу выполнения сделки ОПЕК+ и корректировки его условий, в который входят представители только пяти стран соглашения: Саудовской Аравии, Венесуэлы, Кувейта, Алжира, Омана и России.

# Kapital Bank отменил комиссию по конвертации по всем платежным картам

Kapital Bank отменил комиссию по конвертации по всем платежным картам. Операции по конвертации на картах проводятся по ежедневному банковскому курсу, сообщили в банке.

Kapital Bank является членом международных платежных систем Visa International и MasterCard. Карты Visa можно заказать во всех филиалах Kapital Bank, или онлайн на корпоративном сайте банка. Kapital Bank предлагает клиентам карты в валютах: манат, доллары США и евро, сроком действия на 1, 2 и 3 года.

На данный момент Kapital Bank имеет около 3 миллиона держателей платежных карт. Беспрерывная, стабильная работа процессинг центра в течение недели, а также постоянное инновационное развитие центра является существенным преимуществом Kapital Bank, который имеет свыше 600 банкоматов и 9000 ПОС-терминалов по всей стране.

Kapital Bank оказывает услуги населению в 92 филиалах и 7 отделениях по всей стране, имея самую широкую сеть обслуживания. Более подробную информацию о продуктах и услугах банка можно получить на сайте www.kapitalbank.az, страницах банка в социальных сетях, а также, позвонив в центр обслуживания клиентов по номеру 196.




# WorldBuild Baku 2017: благодатный имидж строительной индустрии



21 октября в Баку Экспо Центре завершается «Каспийская строительная неделя». Крупнейшее мероприятие Прикаспийского региона в строительной области, стартовавшее 18 октября, объединило XXIII Азербайджанскую международную выставку «Строительство» WorldBuild Baku 2017, X юбилейную Международную выставку «Отопление, вентиляция, кондиционирование, водоснабжение, сантехника, технологии по охране окружающей среды, бассейны и возобновляемая энергия» Aquatherm Baku 2017 и X юбилейную Каспийскую международную выставку «Охрана, безопасность и средства спасения» Securika Caspian 2017. Организаторами выставок выступают Британская компания Iteca Caspian и ее партнер компания ITE Group.

В этом году в «Каспийской строительной неделе» приняли участие 310 компаний из 28 стран мира. Одной из особенностей WorldBuild Baku стало активное участие коллективных национальных стендов Германии, Ирана, ОАЭ, Польши. Большим составом выступили турецкие, китайские, российские и чешские производители.

Отличием выставок этого года стала активная деловая программа, спланированная организаторами. Большой интерес вызвали бизнес-туры по выставке предпринимателей из Республики Беларусь, Италии, стран Персидского залива, США. 20 октября состоялся специальный ВИП тур с участием представителей Министерства по чрезвычайным ситуациям Азербайджанской Республики, Союза архитекторов Азербайджана и Азербайджанского университета архитектуры и строительства. Внимание профессионалов привлекло проведение B2B встреч между иностранными участниками выставок и местными дистрибьюторами. Это мероприятие стало эффективной бизнес-площадкой для прямых встреч и переговоров между участниками строительного рынка.

Молодые проектировщики участвовали в воркшопе, проведенном совместно с Союзом архитекторов Азербайджана, участники конкурса два дня создавали проекты использования стройматериалов, представленных на выставке. Здесь же, на выставке, и состоялось награждение победителей.

Aquatherm Baku 2017 собрала 66 компаний из 13 стран мира, среди которых Азербайджан, Иран, Италия, Китай, Кувейт, Турция, Франция и другие. Компании-участники экспонировали вентиляционные, канализационные системы, гидранты, трубопроводные арматуры, отопительные системы, трубы, фитинги, радиаторы, бойлеры, насосные станции, водонагреватели и многое другое.

Securika Caspian 2017 – единственная в регионе международная специализированная выставка по безопасности, объединившая участников из Азербайджана, России, Казахстана и других стран. Здесь широко представлены технические средства обеспечения безопасности, автоматические системы пожаротушения, системы аварийно-пожарного оповещения, системы охранной сигнализации и тревожного оповещения, охранное телевидение и наблюдение, аварийно-спасательную технику, смарт-карты, систему контроля доступа и многое другое.

В процессе проведения «Каспийской строительной недели» свыше 70 процентов участников выставок выразили желание временном сотрудничестве с организаторами в 2018 году.

Мероприятие поддержали Министерство экономики Азербайджанской Республики, Государственное агентство жилищного строительства при Президенте, Государственный комитет по градостроительству и архитектуре, Союз архитекторов Азербайджана, Фонд поощрения экспорта и инвестиций в Азербайджане (AZPROMO) и Национальная конфедерация организаций предпринимателей (Работодателей).

# Шахин Мустафаев: Азербайджан готов наладить экспорт агропродукции в Италию



Азербайджан готов наладить экспорт сельскохозяйственной продукции в Италию, в том числе фундука, овощей и фруктов.

Об этом, как сообщает министерство экономики Азербайджана, сказал глава ведомства Шахин Мустафаев на встрече с послом Италии в Баку Аугусто Массарини.

По словам министра, обе страны имеют большой потенциал для расширения сотрудничества в таких сферах, как промышленность, торговля, сельское хозяйство, текстиль, виноделие, фармацевтика, транзит, туризм и другие.

Мустафаев добавил, что Италия могла бы использовать инфраструктурные и транзитные возможности Азербайджана и создать в этой сфере совместные предприятия.

Министр также коснулся сотрудничества в сфере энергетики, отметив, что проект «Южный газовый коридор» успешно реализуется. Мустафаев подчеркнул важность поддержки правительством Италии строительства Трансанатолийского трубопровода, являющегося частью «Южного газового коридора».

По данным Государственного таможенного комитета Азербайджана, товарооборот с Италией в январе-октябре 2017 года превысил 2,3 миллиарда долларов, из которых 2,07 миллиарда долларов пришлись на экспорт в эту страну.

# REKLAMIN VİZUAL TƏRTİBATI ÜÇÜN PSİXOLOJİ ÜSULLAR

**(əvvəli ötən sayımızda)**

Hətta istehlakçılar jurnal səhifələrini sərbəst vərəqləyən zaman firma elementi qeyri-proporsional diqqəti özünə cəlb edir.
Yekun: loqotipin və ya ticarət markasının digər elementinin ölçüsünün artmasından qorxmayın.




**ŞRİFTLƏR**

Şriftlərin vizual xarakteristikası tamaşaçılarda müəyyən emosiyalar doğura bilər, ona görə də onlar mühüm əhəmiyyətə malikdirlər.
Lazımlı şriftin seçilməsi zamanı üç əsas xarakteristikanı nəzərə almaq lazımdır:
- Xətt - simvolun struktur komponenti;
- Çəki - ayrıca simvolun eni;
- İstiqamət - simvolun məkanca mövqe tutması.

Digər amillər də mövcuddur. Lakin bu üç xarakteristika əsasdır.
İdeallıq baxımından bu vizual xarakteristikalar sizin məhsulunuzda görmək istədiyiniz amillərə uyğun gəlməlidir. Başqa sözlə, optimal şrift sizin reklam etdiyiniz məhsula semantik (mənaca) cəhətdən uyğun gələcək.
Gözəlliyin verilməsi üçün uzun nazik xətlərdən istifadə edin. Tədqiqatlar sübut etmişdir ki, uzun nazik şriftlər daha gözəl görünür. Çəkidə yüngül olan şriftlər zərif, incə, mülayim, yumşaq kimi qəbul olunur, eyni zamanda, daha ağır şriftlər güclü, aqressiv və cəsarətli görünür.
Bu, ona görə baş verir ki, hər bir insanda gözəllik haqqında daha öncədən formalaşmış fikir var. Əksər ölkələrdə (xüsusilə ABŞ-da) hündürboy, qamətli insanlar




gözəl hesab olunur. Bu, gözəlliyin standartıdır və artıq cəmiyyətdə yayılmış şablon, qəlib standartlar səbəbindən bu anlayışlar bir-birilə sıx əlaqədardır.




Bu assosiasiyalar əsas sayılır. Assosiativ səbəblər sayəsində "gözəllik" nöqtəsi aşağıdakı xarakteristikalarla əlaqədardır: hündür, incə, zərif gülüş, göz gözəllikləri.
Ona görə də siz gözəllik xarakteristikalarına (incəlik, zəriflik, boy-buxun) malik elementlərlə qarşılaşsanız, sizdə müəyyən assosiasiyalar yaranacaq:
Əgər siz gözəl 10 şrift seçmək istəyirsinizsə, onda gözəllik anlayışı ilə əlaqədar vizual xarakteristikalara qoşulun. Başqa sözlə, hündür (uzun və müəyyən ölçülü) və zərif şriftləri seçin.
Belə semantik konqruyentlik (fiqurların bir-birinin üstünə qoyulduqda düz gəlməsi) şriftin qəbul olunma sürətini artıracaqdır. İnsanlar onu asanlıqla emal edə biləcəklər, bu isə daha müsbət rəy yaradacaqdır.




Fərz edək ki, sizin məhsulunuz nadir, nəfis, zərif və incədir. Çox güman ki, bu, cah-calal, zinət əşyasıdır. Onda sizin şriftiniz nadirlik elementlərinin gözlənilən xarakteristikalarına uyğun gəlməlidir.
Bir tədqiqatda alimlər pendirin ləziz olmasına dair reklam eksperimentini iştirakçılara göstərmişlər. Məlum olmuşdur ki, sınaqdan keçirənlər pendiri şrift çətin oxunan zaman almağa üstünlük vermişlər. Gündəlik məhsullar kontekstində sürətin artması (informasiyanın qəbul edilməsi) onlarda müsbət siqnallar yaradır ki, məhsul tanınmış nişana malikdir və təhlükəsizdir və bu, malın yüksək qiymətləndirilməsinə gətirib çıxarır.
Eyni zamanda, yüksək texnologiyalı məhsul konteksində artırılmış sürət mənfi siqnaldır və məhsulun tanınmış olmadığını göstərir. Bu isə qiymətin azalmasına gətirib çıxarır. Beləliklə, bu cür məhsullar haqqında informasiyanın emalının mürəkkəbliyi (sadəliyi yox) alıcılara özünəməxsusluğu göstərməyə imkan verir.

**(davamı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**




# Azercell-dən iPhone telefonlarına yeni sərfəli kampaniya




iPhone cihazlarının Azərbaycanda hal-hazırda rəsmi satışını təqdim edən yeganə mobil operator - Azercell Telekom MMC abunəçiləri üçün yeni sərfəli kampaniyaya başlayıb. Belə ki, 15 noyabr 2017-ci il tarixindən müxtəlif iPhone telefonları Hədsiz tarifləri və İnternet paketləri ilə birgə abunəçilərə təqdim olunur.

1. iPhone 8 (64GB)
2. iPhone 8 (256GB)
3. iPhone 8 plus (64GB)
4. iPhone 8 plus (256GB)
5. iPhone 7 (32GB)
6. iPhone 7 (128GB)
7. iPhone 7 plus (128GB)
8. iPhone 6S plus (32GB)
9. iPhone 6 32GB

Kampaniyaya qoşulmaq üçün nömrə sahibi tərəfindən ilkin ödəniş və iş yerindən arayışın təqdim edilməsi tələb olunur. Azercell-in təklif etdiyi bu sərfəli kampaniyadan yararlanmaq istəyən abunəçilər Azercell-in Müştəri Xidmətləri Mərkəzlərinə və yaxud eksklüziv mağazalarına yaxınlaşmalıdırlar. Tələsin, telefonların sayı məhduddur!

# Tur proqram müsabiqəsinin qalibləri mükafatlandırıldı

"AtaTravel" MMC 11 oktyabr tarixində elan etdiyi tur proqram müsabiqəsinin qalibləri ilə görüş keçirdi. Görüşdə "AtaTravel" MMC-nin tur operatoru Rəvan Əhmədov bildirdi ki, tələbələr müsabiqədə aktiv olublar və maraqlı tur proqramlar təqdim ediblər. R.Əhmədovun sözlərinə görə, müsabiqədə bu cür aktiv iştirak gələcəkdə turizm ixtisası üzrə təhsil alan həmin tələbələrin daxili turizm üzrə fəaliyyətinə, bu sahədə bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərəcək.
Tədbirdə turizm ixtisası üzrə təhsil alan Rəşid Əliyev və Aynurə Budaqova Azərbaycanın turizm bölgələri, həmin regiona aid əlamətdar turizm nöqtələri və marşrutları daxil edilmiş əsaslandırılmış tur proqram təqdim etdiklərinə görə qalib elan edildilər.
Şirkətin tur operatoru Rəvan Əhmədov qaliblərə sertifikat və hədiyyələr təqdim etdi.
Qeyd edək ki, müsabiqə turizm ixtisası üzrə təhsil alan tələbələrin bilik və bacarıqlarını artırmaq, həmçinin Azərbaycan turizminin inkişafına dəstək məqsədilə təşkil edilib.




# Bakcell biznes qurmaq istəyən gənclərə maliyyə ayırıb

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyinin himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq üçün maliyyə vəsaiti ayırıb. Bu dəstək sayəsində 3 nəfər gənc öz kiçik bizneslərini qurmaq imkanı əldə edib. Həmin gənclər "Bakcell"in dəstəyilə "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası tərəfindən icra edilən "Gənclərin Karyera və İnkişaf Mərkəzi" layihəsinin benefisiarlarıdır.
"Bakcell şirkəti uzun illərdir ki, öz Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək göstərir. Onların təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş



qura bilmə qabiliyyətlərinin olması çox vacibdir. Bakcell və "SOS Uşaq Kəndləri" arasında əməkdaşlıq uzun illər öncə başlayıb. Sevindirici haldır ki, bu əməkdaşlıq davamlı xarakter daşıyıb və artıq gənclərə öz bizneslərini qurmağa dəstək göstərmək mərhələsinə çatıb", - deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.
Layihənin ötən il həyata keçirilən birinci mərhələsində 15 gənc "Öz biznesinə başla və təkmilləşdir" adlı təlimlərdə iştirak edib. Onlardan 6 nəfəri öz ideyalarının biznes planını hazırlayıb. Layihələr "Bakcell", "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası və Beynəlxalq Əmək Təşkilatının (BƏT) ekspertlərindən ibarət Qiymətləndirmə Komissiyası tərəfindən qiymətləndirilib. Beləliklə, ən yüksək nəticələr nümayiş etdirən 3 uğurlu biznes layihəsinin Bakcell şirkəti tərəfindən maliyyələşdirilməsi qərara alınıb. Bunlar "Floristika" gül dükanı, "Şirniyyat evi" və "Çay evi" layihələridir.
Gənclərin biznes planlarının hazırlanmasına mütəxəssislər tərəfindən dəstək göstərilib. Qiymətləndirmə zamanı biznes planın hazırlanması, ideyanın real bazar şərtlərində özünü doğrultma imkanları, müraciət edən şəxsin təcrübəsi və sosial vəziyyəti və s. kimi meyarlar əsas götürülüb.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə ailəsi ilə birlikdə
**MUSTAFA MOLLA OĞLU MUSTAFAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**